p



# Klassik və müasir Azərbaycan ədəbiyyatında Əhli-Beyt(ə)



# MÜNDƏRİCAT

Ön söz ........ 1
Klassik ədəbiyyatımızda Əhli-Beyt ........ 2
Əliağa Vahid ........ 3
Mirzə Ələkbər Sabir ........ 7
Abbasqulu Ağa Bakıxanov ........ 12
Məhəmməd Füzuli ........ 19
Xurşibanu Natəvan ........ 22
Qasım Bəy Zakir ........ 26
Qumri Dərbəndi ........ 31
Seyyid Əzim Şirvani ........ 41
Şəhriyar ........ 46
Aşıq Ələsgər ........ 51
Əbülhəsən Raci ........ 56
Şah İsmayıl Səfəvi ........ 64
Seyyid İmadəddin Nəsimi ........ 68
Seyyid Əbülqasim Nəbati ........ 73
Nizami Gəncəvi ........ 79
Abbasqulu Yəhyəvi Ərdəbili ........ 85
Mir Möhsün Nəvvab ........ 100
Molla Pənah Vaqif ........ 108
Şair Məmmədhüseyn ........ 113
Hacı Zeynalabdin Şirvani ........ 120

Müasir ədəbiyyatımızda Əhli-Beyt ........ 124
Cəsur Nari ........ 125
Əli Azər Bandoj ........ 128
Arif Buzovna ........ 132
Hacı Mail ........ 136
Vüqar Biləcəri ........ 143
Hacı Ələmdar Mahir ........ 148
Baba Pünhan ........ 156
Hacı Adil Əkbər ........ 161
Soltan Əlizadə ........ 165
Tofiq Həsənli ........ 169
Seyyid Nurəddin Darafərin ........ 173
Axund Azər Sani ........ 180
Seyyid Əsri ........ 192
Məşədi Baba ........ 199
Əbdül Fəqir ........ 207
Elşən Xəzər ........ 210
Şöhrət Səqqa ........ 215
Abdullah Abbaslı ........ 222
Pünhan Əzimli ........ 229
Aydın Xırdalanlı ........ 235

# ***Ön Söz***

***Dünyada barmaq sayı qədər xalq var ki, onun klassik və müasir şairlərinin əksəri Əhli-Beytə şeir yazmış olsunlar. Azərbaycan xalqı həmin azsaylı xalqlardandır. Bu mədəni irsi qorumaq və gələcək nəsillərə çatdırmaq vəzifəsi bizləri bu kitabı hazırlamağa sövq etdi. Ümidvarıq ki, bununla Əhli-Beyt yoluna və Azərbaycan xalqına xidmət etmiş olarıq.***

***Mirağa Dadaş***

# *Klassik ədəbiyyatımızda Əhli-Beyt*



***Əliağa Vahid***

***Vahidəm, eşqü-məhəbbətlə cahandan getdim…***
***Heyif ki, bilmədilər mən nə təriqətdə idim…***

***

***İlahi, gizli deyildir sənə sədaqətimiz,***
***Ürəkdə daimi bu eşqimiz, məhəbbətimiz.***

***Bizim bu dostluğu ya Rəbb özün başaycan elə,***
***Ölən zəmanə kimi olmaya ədavətimiz.***

***O mərhəmət əlini kəsmə bizdən, ey Rəbbim,***
***Ki, bir-birinə bizim olmaya xəyanətimiz.***

***Nə bir günahımız olsa bizi bağışla Özün,***
***Ki, həşrdə yenə Sənsən bizim şəfaətimiz.***

***Bizim bu dostluğu ey padşahi-külli-cahan***
***Həmişəlik elə, ta olmaya xəcalətimiz.***

***Mükəmməl aşiq olan bir-birindən ayrılmaz,***
***O Həqqi zikr eləmək Vahid olsa adətimiz.***

***

***Şümri-dun ilə Hüseyn, eşqin düşüb sevdasına,***
***Rey həvasına biri, biri bəla səhrasına.***

***Şümri-dun yəğmayə verdi din ilə imanını,***
***Mülki-Reydən ötrü tərk etdi bütün vicdanını,***
***Təşnə öldürdü su üstə Kərbəla mehmanını,***
***Baxmadı nə Əsğəru nə Əkbəru Əbbasına.***

***Badeyi-eşqi Hüseyn, bir cürə kim nuş eylədi,***
***Canını, övladını yeksər fərmayuş eylədi,***
***Möhnəti-dərdi-qəmə öz canını tuş eylədi,***
***Atdı bir dəmdə özün eşqin dərin dəryasına.***

***Bu Hüseynə eşqidə kimsə bərabər durmasın,***
***Xahi-İbrahimu-İsmail mükərrər durmasın,***
***Kə'bədən yağsın məqamın bəlkə Hacər durmasın,***
***Qürbdə yetməz məqamı Kərbəla Minasına.***

*Ver xəbər, badi-səba, Yəqubə, sonra Hacərə,*
*Ağlama İsmailə, ya Yusifi mahpeykərə,*
*Ölmək üçün zinət eylər Leyli oğlu Əkbərə,*
*Bir baxın eşqi-Hüseynə, Əkbərü-Leylasına.*

*Eşq mülkini Hüseyn tək kimsə abad etmədi,*
*Kimdü Mənsur, kimdü Məcnun, böylə bir ad etmədi,*
*Üz verib yüz qəm ona, bir ləhzə fəryad etmədi,*
*Mərhəba, səd mərhəba bu aşiqin sövdasına.*

*Var yeri olsa əgər İsəbni-Məryəm çakəri,*
*Nuhu-Musa pasibani olmuş, Adəm çakəri,*
*Bu Hüseyn Kərbübəlanın cümlə aləm çakəri,*
*Məryəmü-Sara kəniz ol Zeynəbi-ülyasına.*

*Kə'beyi-kuyin əgər olsaydı qismət Vahidə,*
*Cümleyi-hüzzar ilən ol paki türbət Vahidə,*
*Ruzi-məhşərdə fəramuş etmə rəhmət Vahidə,*
*Canını etdi fəda bu ümmətin xülyasına.*



***Mirzə Ələkbər Sabir***

***İslam o deyilmi ki, cigər guşeyi Zəhra***
***Baş verdi yolunda, susuz, al-qan arasında…***

***

*Baxdı çün Əkbərinin nizədə Leyla üzünə,*
*Gördü zülfü tökülüb, çün şəbi-yəlda üzünə.*

*Gəldi şurə dedi: Ey şəm'i-şəbistanım oğul,*
*Yetmədi kami - muradə məhi - təbanım oğul,*
*Həşrətək dildə qalıb çıxmadı bu canım, oğul,*
*Gəlməyəydi anan, ey kaş ki, bu dünya üzünə.*

*Ey səba! Bircə əs, ol zülfi - pərişanı dağıt,*
*Xanimani - dili - viraneyi - Leylanı dağıt,*
*Dili - viraneyi - Leyla kimi dünyanı dağıt,*
*Qoyma düşsün dəxi ol zülfi-səmənsa üzünə.*

*Çün kənar etdi səba zülfi - şikən pürşikəni,*
*Görünüb Haşimi xalilə xətu vəlhəsəni,*
*Məhv olub cümləsi, tökdülə dəfi - dairəni,*
*Bir baxıb Əkbərə, bir baxdıla Leyla üzünə.*

***Qaşların tağı, oğul sureyi - "Yasin" oxuyur,***
***Baxsa hər kim üzünə ayeyi- "Təhsin" oxuyur,***
***Əhli-Qur'andu bular cümləsi "Ta Sin" oxuyur,***
***Necə çəkdilər qılınc məzhəri - "Ta Ha" üzünə?***

***Dedilər: Kimdi bu övrət bizi nalan eləyən,***
***Yoxsa Leyladı bu Məcnun kimi əfqan eləyən,***
***Səni, ey tazə cavan, qanına qəltan eləyən,***
***Necə məhşərdə baxar Həzrəti-Zəhra üzünə?***

***Etdilər çahi-zənəxdanına həsrətlə nəzər,***
***Zər xirid olmaq üçün bir-birinə verdi xəbər,***
***Tökdülər Şam Züleyxaları çün əşki-bəsər,***
***Baxdılar həsrət ilə Yusifi-Bədha üzünə.***

***Arizin səfheyi - İncili - Xudavəndi - vədud,***
***Nizə başında başın, həm oxuyur süreyi-Hud,***
***Deyəsən, nizə ayağında durub qövmi-Yəhud***
***Darın üstündə baxırlar hamı İsa üzünə.***

***Məzhəri-hüsni-peyəmbər rüxi-xalındu sənin,***
***Ayeyi-"Şəmsü-Züha" mehri cəmalındı sənin,***

***Sureyi- "Nunü-Qələm" Haşimi xalındı sənin,***
***Kakilin pərdə çəkib "Leylətül-Əsra" üzünə.***

***Başdakı şuri-şəhadətdi sənin tacın, oğul***
***Arizin Kə'bə, hərəmlər hamı hüccacın oğul,***
***Rəfrəfin nizə, mübarəkdi bu Me'racın oğul,***
***Qaşların qiblədü "Qövseyni-ov-ədna" üzünə.***

***Gəh üzün ayineyi - Müshəfü Tövratü Zəbur,***
***Atəşi - Turi - təcəlladı cəmalında zühur,***
***Misridür Şam bu qibtilərə, ya vadiyi - Tur,***
***Ali - Fir'ondu gəlib baxmağa Musa üzünə.***

***Sabira, hər il əza saxla Əli Əkbərə sən,***
***Kərbəladə gedib ağla o şəhi-davərə sən,***
***Gəl qiyamətdə bu cəm ilə səfi-Məhşərə sən,***
***Qalma həsrət iki dünyadə bu Mövla üzünə.***

***

***Nola ərbabi-kəmal eyləyə təhsin mənə kim,***
***Fələki-nəzmidə bir əxtəri-rəxşanəm mən.***

***Xaki-payimdi verən dideyi-xurşidə ziya***
***Ki, Hüseyn nökəriyəm, aləmə sultanəm mən.***

***Dövr edər başimə hər gündə hümayi-dövlət***
***Ki, əza gülşəninə bülbüli-nalanəm mən.***

***Müddəilər gözünə xari-müğiylanəm əgər,***
***Nəzəri-paki-əhibbadə gülüstanəm mən.***

***Gərçi pür əhqəri-nasəm bu həqarətlə, vəli***
***Zakiri-ali-əbayəm, şəhi-dövranəm mən.***

***Sabirəm, səbr şüarımdı, qanaət tacım,***
***Nəfsimə padişahəm, sahibi-fərmanəm mən.***

***Tapmışam fəqridə bir xatəmi-istiğna kim,***
***Deyərəm təxti-qənaətdə Süleymanəm mən.***



## *Abbasqulu Ağa Bakıxanov*

***Hər dəm gəlir fəğanə dili-zarım, ağlaram,***
***Soldu xəzani zülm ilə gülzarım, ağlaram.***

***Hər məclisi-əzadə məni zari-binəva,***
***Ta var dilimdə qüvvəti-göftarım, ağlaram.***

***Bəzmi-vüsalidən məni saldı fərağə çərx,***
***Qaldı qiyami-məhşərə didarım, ağlaram.***

***Əhli-vətən tapılmadı ta dəfnim eyləsin,***
***Qaldı Fəratın üstə Ələmdarım, ağlaram.***

***

***Kərbəla, saxlagilən nə'şi-Əli Əkbərimi,***

***Verirəm çünki əmanət sənə gülpeykərimi.***

***Yoxdu çün Leyliyi-biçarəyə qəmxari-dəlil,***

***Atəşin ahilə göz yaşım olur xakə səbil,***

***Çarəm olsaydi əgər qoymaz idim xaru-zəlil,***

***Sayəban eylər idim nə'şə qəra məcərimi.***

***Dutdu xurşidi-cahan tabımı zülmati-cəfa,***

***Olmadi bircə bu bazaridə sərrafi-vəfa,***

***Oldi çün qaninə qəltan düri-dəryayi-səfa,***

***Tökərəm arizimə lö'lövü əşki-tərimi.***

***Necə bəs qaninə qəltan görüm qamətini,***

***Görmədim hiclədə, səd heyf, qəmər tələtini,***

***Salmadım qaməti-rənasına toy xəl`ətini,***

***Aldılar çünki əlimdən bu vəfapərvərimi.***

***Könlümü tirə nişan eylədilər firqəyi-cəng,***
***Yağıdıb çərxi-kaman gülşənə barani-xədəng,***
***Səfheyi-sinəsini gustəri-zəxm eylədi təng,***
***Etdilər qaninə qəltan bu mələkmənzərimi.***

***Bu cavan tabü-təvan, ruhi-rəvanımdı mənim,***
***Qalıb üryan yerin üstündə bu gül pirəhənim,***
***Yoxdu tabut ilə kafurü-hünuti kəfənim,***
***Dəfn edim xaki-məzar içrə vəfa güstərimi.***

***Əkbərin fərqini şəmşiri-cəfa eylədi şəq,***
***Qan olub arizi-xurşidinə həmrəngi-şəfəq,***
***Əhli-halə görünür ayinədən cilveyi-Həqq,***
***Görsələr növgi-cida üstə məhi-ənvərimi.***

***Tirə xak üstə məqam eylədi çün ayeyi-nur,***
***Pərdeyi-qeybdən hər dərdi-bəla etdi zühur,***
***Əhli-beyti-hərəmin naləsidir nəğmeyi-sur,***
***Gördüm aləmdə əyan vaqieyi-məhşərimi.***

***Tökdülər arizimə göz yaşımı jalə kimi,***
***Qəmərin dövrəsini zülmət alıb halə kimi,***

***Qasimin qəlbini dağ eylədilər lalə kimi,***
***Saldılar xak ilə xun içrə o məhpeykərimi.***

***Atəşi-suzi-ətəş tiflimi bitab elədi,***
***Lö'löyü-əşkini müjkanə düri-nab elədi,***
***Vermədi Hərmələ su, tir ilə sirab elədi,***
***Şahi-ləbtəşnə qucağında Əli-Əsğərimi.***

***Qolların tiği-cəfa ilə qələm etdi ədu,***
***Caridür sərvi-səhi-naz ayağından hu,***
***Verdi can abi-Fərat üstə, vəli içmədi su,***
***Ric'ətə saxlagilən şiri-qəzənfərfərimi.***

***Dutacaq məhvili-Qüdsidə əza Ruhil-Əmin,***
***Olacaq həşrə kimi nohəsəra ruyi-zəmin,***
***Saldılar ərşi-səfadən yerə çün firqeyi-kin,***
***Zülm ilən şəmsi-müniri qəmərü əxtərimi.***

***

***Gəl olma riza, didəsi xunbar ola Zeynəb,***

***Məzlum Hüseyn, Şümrə giriftar ola Zeynəb.***

***Bu qədri bəla dağinə yox tabü təvanım,***

***Ləb təşnə verüb canini sərdari-cəvanım,***

***Pəs lazimədür həşrə kimi-ruhi-rəvanım,***

***Həsrətkeşi-didari-Ələmdar ola Zeynəb.***

***Düşsə güzərün qətligəhə kani-mürüvvət,***

***Əbbasə belə ərz edərəm baqəmü möhnət,***

***İnsafdü, ey sərvəri-din, sahibi-qeyrət,***

***Şam içrə gedüb rövnəqi-bazar ola Zeynəb?***

***Pərvanə kimi atəşi hicranuva yannam,***

***Əyyami-vüsali eləyüb fikr, dayannam,***

***Zülfimi tökb nəşüvə, al qanə boyannam,***

***Qan ilə gərək arizi gülnar ola Zeynəb.***

***Bir ah çəkub verdi cəvabun şəhi-dövran,***
***Yandırdı məni sözlərün ey bikəsü nalan,***
***Gər çarəm ola, razi degül canimə Canan,***
***Çöllərdə qalub zarü diləfkar ola Zeynəb.***

***Lazımdu bu can eşqidə al qanə boyansun,***
***Gülzari-vəfa xuni-vəfa ilə sulansun,***
***Meydanda gərək şəmimə pərvanə dolansun,***
***Ol mərkəzün ətrafinə pərgar ola Zeynəb.***

***İmdi düşəcək xakilə xunə təni-xəstə,***
***Qətlimə hücumavər olar dəstə bə dəstə,***
***Lazımdu, gəlib qətligəhə nəşimin üstə,***
***Başinə salub qarə əzadar ola Zeynəb.***

***Ərz eylədi: Çün qarət edər xeyməni ləşgər,***
***Bir qarə tapılmaz ki, salam başimə məcər,***
***Qoymaz məni əfqan eləyüm Şümri-bədəxtər,***
***Ta nəşüvün üstündə gühərbar ola Zeynəb.***

***Çox zülm edəcəklər məni-məzlumü fikarə,***

***Çoxlar vuracaq sinəmə şəmşir ilə yarə,***

***Üç gün-gecə naşim qala qoymazla məzarə,***

***Qüdsi kimi matəmdə gərək zar ola Zeynəb.***




## *Məhəmməd Füzuli*

## *Mahi-Məhərrəm oldu məsərrət haramdır…*
## *Matəm bu gün şəriətə bir ehtiramdır…*

***

***Mən əzəldən nuri-pak-Müstəfanı sevmişəm,***

***Şahi-Mərdan, şiri-Yəzdan Mürtəzanı sevmişəm.***

***Yox mənim canimdə qorxu atəşi-niranidən,***

***Çün Həsən, xummi Hüseyn, Kərbübəlanı sevmişəm.***

***Rəhnümadır cümlə iman əhlinə Zeynül-İbad,***

***Baqiri-Cə'fər, Əli, Musər-Rizanı sevmişəm.***

***Həm Təqidir, həm Nəqidir, həm İmami-Əskəri***

***Ey Füzuli, sidq ilən Sahib-Zəmanı sevmişəm.***

***

***Əzbər olmuşdur dilimdə şanlı namın, ya Əli!***

***Mən kiməm, aləmdə bir kəmtər qulamın ya Əli!***

***Şükr ola Allahə kim sayə salıbdır başimə,***

***Dövləti-iqbal ilə lütfi-müdamın ya Əli!***

***Müshəfi-həqdə olan hər hikmətin mənasıdır,***

***Hikmətin kani olan hər bir kəlamın ya Əli!***

***Kim nəcat istər Qiyamətdə, gərəkdir saxlaya,***

***Taəti-həqq tək həmişə ehtiramın ya Əli!***

***Cümlə insanlar, mələklər Kəbə tək məbəd sanar,***

***Hər yerin kim orda olmuşdur məqamın ya Əli!***

***Hər kəs istərsə, cahanda çərxidən alsın murad,***

***Kama çatmaz olmasa, lütfi-tamamın ya Əli!***

***Lütfi-süfrəndən sənin hər ləhzədə min feyz alır,***

***Bu Füzuli vird edər həmdi-salamın ya Əli!***



***Xurşidbanu Natəvan***

***O gün kim məhşəri-kübra olur, vəhm et o gündən ki,***
***Tutub damanını dildən çəkim əfqan, Xudahafiz!***

***

***Söylə Hüseynə, ey səba, Kərbübəlaya gəlməsin,***

***Gəlsə, düşər bu dəştidə dərdü-bəlayə, gəlməsin.***

***Söyləginən gətirməsün Kufəyə nazlı Əkbəri,***

***Zülm ilə qanına batar türreyi-müşki-ənbəri.***

***Bəlkə Firəngətək apar cümleyi-ali-Heydəri,***

***Zibhi-əzim üçün bu gün kuhi-Minayə gəlməsin.***

***Söylə gətirmə Qasimi, qatili eyləyir şitab,***

***Toyda olur yəqin onun qanına əlləri xizab.***

***Görmə rəva ki, Şümri-dun, din evin eyləsin xərab,***

***Rəhm eləsin o Zeynəbi-bəxti-qərayə, gəlməsin.***

***Gəlməyə yoxdu fürsətim, qan ilə namə yazmışam,***

***Öldürəcəkdi Müslümü Kufədə firqəyi-zülam.***

***Qardaşının uzun qolu görmə rəva ola qələm,***

***Bacıları ayaqyalın, dəşti-bəlayə gəlməsin.***

***Yetsə əgər xəbər sənə öldü bu Müslimi Əqil,***

***İbni-Ziyad nəşimi gərçi edibdi çox zəlil,***

***Qüslü hənuti olmadı, oldu qənarədə qətil,***
***İstəmirəm, əyalını qoyma, əzayə gəlməsin.***

***Badi-xəzan əsər sənin qönçəsifət əyalına,***
***Rəhm elə, yavərim Hüseyn, Qasimi-xoşməqalına.***
***Cam təsəddüq eylədim Əkbərimə, cəmalına,***
***Sağ ola ol imam Hüseyn, qəm üsərayə gəlməsin.***

***Söylə əmoğluma məni-bikəsi eyləsin həlal,***
***Ərzimi birbəbir elə, Ali-Əbayə şərhi-hal.***
***İki açılmamış gülüm Kufədə zari-dilməlal,***
***Qaldılar Əkbər ilə ol Qasim, hərayə gəlməsin.***

***Həsrətəm ol cəmalına, ah çəkim bu sinədən,***
***Kufədə vardu qatilin, gəlmə həzin Mədinədən,***
***Qoyma yetim Xədicəni ayrı ola Səkinədən,***
***Başına əl çək, ağlayıb şuri-nəvayə gəlməsin.***

***Söylə onun anasına başını qarə bağlasın,***
***İki baladən ayrılıb, kövni-məkanı dağlasın,***

***Tutsa əza, Xədicədən söylə ki, gizli ağlasın,***
***Bəlkə yetimliyin tozu mahi-liqayə gəlməsin.***
***Fatimənin kənizi, bu qissəni eylə kim, tamam,***
***Bir-birə dəydi mərdü-zən, şurə gəlibdü xasuam.***
***Növhə edər bu Natəvan, ruzü şəb ağlayar müdam,***
***Tapmasa bir dəri-nicat, dari-bəqayə gəlməsin.***

***Seyyid Əzim Şirvani Natəvan xanıma belə cavab verib;***

***Söylə Hüseynə ey ərəb, Kərbü-bəlayə getdilər.***
***Fatiməni əcəb salıb dərdü-bəlayə getdilər.***

***Bir də Hüseynə söylə ki, ey Şahi-insü-can baba,***
***Siz gələsiz Mədinəyə eyləyərəm güman baba,***
***Əkbəri yollaram dedin, gəlmədi əl-əman baba,***
***Tərk eləyib Mədinəni dəştü-bəlayə getdilər.***
***Fatiməni əcəb salıb dərdü-bəlayə getdilər.***



## *Qasım Bəy Zakir*

***Zakir, yapış ol Əhmədi-Muxtar ətəyindən,***
***Xeybər dağıdan Heydəri-Kərrar ətəyindən.***

***

***Bu nə mahidir, ki həddən, keçib iztirabi-Zeynəb,***
***Fələk üzrə mehrü-mahi, eləyib kəbabi-Zeynəb.***

***Dedim əndəlibi-zarə, ki, nə ahi-zaridir bu?***
***Dedi: Bu fəğanə bais ələmi-cənabi-Zeynəb.***

***Dəxi lalədən soruşdum: niyə dağidar olubsan?***
***Dedi: Yandırıbdı bağrım o evi xərabi-Zeynəb.***

***Gülü, sünbülü çəməndə, bu gün əşkibari gördüm,***
***Buları edib pərişan yəqin inqilabi-Zeynəb.***

***Bu bəlalı çöldə qönçə, necə bərqərari olsun,***
***Kim, əsiri Şami-şuma gedə biniqabi-Zeynəb.***

***Özün etsə qərqeyi-xun, nə əcəb o qətligahda,***
***Bədəni-Hüseyni göz-göz görə çün cənabi-Zeynəb.***

***Götü(r) zivəri aradan, ki, fəqani-şanə qoymaz,***
***Səri-zülfi-növrəsə çün verə piçitabi-Zeynəb.***

***Deyil özgə ğazə hacət, onun əllərin həmin dəm,***
***Dəmi-Qasim ilə eylə necə gör xizabi-Zeynəb.***

***Nə rəvadürür güşadə, gəzə kuçə-kuçə, ey çərx,***
***O, öz əksi-qamətindən eləyən hicabi-Zeynəb.***

***Xəbər aldım əhli-beytin, ədədi qəmin fələkdən,***
***Dedi ki, hesaba gəlməz qəmi-bihesabi-Zeynəb.***

***Hamı dostunun günahın Sən özün bağışla, ya Rəbb,***
***Bədəli-qəmini-Gülsüm beruxi-pürabi-Zeynəb.***

***Dəxi Zakiri hesab et səgi-kuyi-Kərbəladən,***
***Behəqqi-fəqani-Zəhra, behəqi-əzabi-Zeynəb.***

***

*Ey dil, yapış ol Əhmədi-Muxtar ətəyindən; Ta kim, nəfəsin var.*
*Səflər dağıdan Heydəri-Kərrar ətəyindən; Qəmdən bizi qurtar.*
*Tut silsileyi-seyyidi-əbrar ətəyindən; Onlardı dəhü çar.*
*Həftadi-dü tən yavərü qəmxar ətəyindən; Xoşxülq, xoşətvar.*
*Hər xeyr tökülsə, tökülür var ətəyindən; Bil vazehü-aşkar.*

*Ta onbeşədək bilmədin əsla nədir ehkam; "Tifləm",-dedin, ey dun*
*Müddət də dolandın arada sərxoşü sərsəm; Öz-özünə məmnun.*
*Əlbəttə, dedin: püxtə olar əllidə bu xam; Keçdi o da əknun.*
*Həştad yaxınlaşdı, görək hanı bəs əncam; Etdin məni məğbun.*
*Harda tökəcəksən daşı idbar, ətəyindən; Yox səndə məgər ar?!*

*Ovqati-əzizi keçi(r)din ləhvü-ləəblə; Çəkdin bəsi zəhmət.*
*Tərtibi verib məclisə biəsl nəsəblə; İçdin meyi-ğəflət.*
*Bir dəm oturub-durmadın ərkanü ədəblə; Bahörməti-taət.*
*İnsaf elə, ol qadiri-biçun nə səbəblə; Versin sana cənnət?!*
*Dünyadə tutan badeyi-gülnar ətəyindən; Üqbadə tapar nar.*

***Hər qanda ki, bir dilbəri-tənnaz eşitdin; Xoş şəklü şəmayil.***
***Çox verdi sana pənd xirəd, sən az eşitdin; Oldun ona mayil.***
***Daim süxəni-mərdümi-nasaz eşitdin; Yox sən kimi zayil.***
***Məsciddəvü mənbərdə qışü yaz eşitdin; Yüz vəz'ü dəlayil***
***Cümlə dedilər: əl götü(r) bəd kar ətəyindən; Lənət sana səd bar!***

***Bir kimsənə ki, naqis ola ruzi-əzəldən; Gər yali ağarə;***
***Bir ləhzə mənim kimi usanmaz bəd əməldən; Artar vara-varə.***
***Daim danışır badəvü məhbubü gözəldən; Bişüğl, bikarə.***
***Yox daneyi-ərzən qədəri şe'rü-qəzəldən; Zakir, sana çarə.***
***Tut Ali-Əlinin genə naçar ətəyindən; Fəryad elə, yalvar.***




## *Qumri Dərbəndi*

***Bir ömrü "Ya Hüseyn" demişəm, ya Hüseyn sənə,***
***İndi yaman günümdü əlimdən yapış, ağa.***

***Bu qəbr guşəsində qəribəm, adamsızam,***
***Nə burda bir qohum tapılır, nə tanış, ağa.***

***Qorxum budur karıxdıralar qəbridə məni,***
***Lütf eylə, sən özün bu işə bir qarış, ağa.***

***Min dəfə mən sənin əvəzindən danışmışam,***
***Bir yol da sən mənim əvəzimdən danış, ağa.***

***Şairin qəbir daşına yazılan şeir***

***

***Saqiya eylə kərəm dur meyi-minanı gətir***
***Qoy gözüm üstə qədəm sağəri-səhbanı gətir***

***Laləzar oldu çəmən üz verib əyyami-bəhar***
***Cami-zərrin ələ al badeyi-hümranı gətir***

***Qıl əta hüsrəmi-gülfami-fərəh bəxşü-zülal,***
***Lə'lgün Abu-turab rahu-müsəffanı gətir***

***Qədəhi eylə ləbaləb, ver içim məstanə,***
***Badeyi eşq cənabi-Şəhi-Mərdanı gətir***

***Tutiyi-nitq göhərbarım açıb durci-dəhən,***
***Bəzm şahanə qurub məclisi-irfanı gətir***

***Badibanın çəkib ovcu fələkə fülki-xiyal,***
***Ləngər etməyliyə amadədi dəryanı gətir***

***Rayəti fikrim olub hər tərəfə şuqqə-güşa,***
***Dövrə qılmaqlıq üçün aləmi-balanı gətir***

***Bal zərrin götürüb uçmağa şahinü-məğal,***
***Bir dəm ey tə'bi-rəvan başıma sövdanı gətir***

***Sədəfi nəzmi təmamən yetirib dürri-yətim,***
***Qiymətin bilməyə Sərrafi-suxəndanı gətir***

***Bircə bu məclisə ey saqiyi-fərxundə-cəmal,***
***Şüarayi-əcəmu-türk-Buxaranı gətir***

***Ola gər eylə güzar məmləkəti-Şirvanə,***
***Nəzmidə firqeyi şairlərə Xaqanı gətir***

***Söylə Xaqaniyə ey Çinü-suxən Xaqani,***
***Ərməğan əldə tutub nəzm durəfşanı gətir***

***Unsuri-aləmi-zülmat ənasirdə göz aç,***
***Vadiyi-eymənə gəl, Turi-təcəllanı gətir***

***Qıl xəbərdar Nəvai kimi sahib hünəri,***
***De tamaşaya təmam əfsəhi-Turanı gətir***

*Ənvəri-neyyiri-ə'zəm kimi nəzmidə munir,*
*Dürr-nisar eyləməyə əqdi-sürəyyanı gətir*

*Cami-vəhdətdən içən camu-cəmi-camə deyin,*
*Açmaya durc-fəsahət duri-mərcanı gətir*

*Sə'diya ismi-sənin, taleyi-məs'ud mənim,*
*Bərg bibaridi Bustan-u-Gülüstanı gətir*

*Ey olan Hafizi kənzi-düri-şəhvari-qəzəl*
*Yari-məşuqi nədir, huriyi-qılmanı gətir*

*Ey Nizami demə çox Xosrov ilə Şirindən*
*İstəsən təxti-büsat üstə Süleymanı gətir*

*Ar ola qüvveyi-idrakuvə ey Xaqani*
*Sən də gəl öz dediyin hərzəvü-hədyanı gətir*

*Çox da fəxr eyləmə öz nəzmüvə ey Firdovsi*
*Sevəsən söz yerinə lə'l-bədəxşanı gətir*

***Gəl şücaətlə girək hər ikimiz cəngahə***
***Mərəzi-cəngə qədəm qoymağa meydanı gətir***

***Dörd ağac xari-muğilan yetirən buğə mənim***
***Sən müqabildə yığıb sahəti-dünyanı gətir***

***Qabiliyyət hanı Ğəbradə müqabil tutasan***
***Gər qələt eyləməsəm ərşi-müəllanı gətir***

***Mən açım rəzmdə bir qanlı ələm şuqqəsini***
***Ələmi-Gavə nədir, mehri-dürəxşanı gətir***

***Vardi bir məşk mənim, saf suyum abi-Fürat***
***Rudi-Ceyhun demə keç Qilzəmü-ümmanı gətir***

***Mən İqab adlı səmənd üstə qoyum zivərü-zin***
***Sən də öz Rəxşün ilən ərsədə cövlanı gətir***

***Zülfüqar adlı qılınc mən çəkərəm davadə***
***Gavi-zərdüz ilə sən Puru-Nərimanı gətir***

***Məndə bir sinəsi dörd min yaralı köynək var***
***Sən təhəmtüyən geyən coşi-xuftanı gətir***

***Bəsdi bir qan ilə əlvan olan əmmamə mənə***
***Sən gedib məğfəri-fuladi-müəllanı gətir***

***Mən əl üstündə götürrəm bir uşaq qundağın***
***İstəsən sən dəxi kürsi-məhi-tabanı gətir***

***Çəkərəm ərsəyi cəngahuvə bir tazə cəvan***
***Gör cəmalin sora get la'leyi-hümranı gətir***

***Ləşkərim yetmiş iki təşnə dilavərdi mənim***
***Sən özün cəm'i qılıb ləşgəri-İranı gətir***

***Arizu eyləmə hər beytivə dinaru-təla***
***Mən kimi beytivə bir Cənnəti-Rizvanı gətir***

***Heyf zəhmət çəkibən bağlamısan Şahnamə***
***Onda vəsf eylədiyin Rüstəmi-dastanı gətir***

*Kimdi Rüstəm, nə Fəramərz, nədi Söhrab, nə Kiyo?!*
*Bəlkə İsgəndər ilən Bəhməni-Daranı gətir*

*Nədi İsgəndəri-Dara, nə salatini-Kiyan*
*Turi Sinayə gedib Həzrəti-Musanı gətir*

*Ya yapış Nuh ətəyindən o deyil fülki-nicat*
*Ya çıxıb tarimi çarımdəki İsanı gətir*

*Ya gəzib səhfeyi dünyanı dolan eylə soraq*
*Misridən təxti ilə Yusifi-Kən'anı gətir*

*Hardadır səndə mənim tək şərəfü-cahu-cəlal*
*Şivəyi-nəzmidə girəm yədu-beyzanı gətir*

*Ğubhi-fahiş gətirib eyləmisən sərf kəmal*
*Özün insaf ilə əql üstə bu sövdanı gətir*

*Rəhbərimdir iki dünyada Hüseyn ibn Əli*
*Gər varın olsa sənin də belə mövlanı gətir*

*Həşridə cam bulur əldə tutub Şiri-Xuda*
*Buyurur təşnədi çox Qumriyi-nalanı gətir*

***

*Salma gözdən bu zaman, ey Şəhi-əbrar məni,*

*Qılma ənduhi-qəmi-dərdə giriftar məni,*

*Eyləyib çərxi-fələk didəsi xünbar məni,*

*Xəstəvü-xuncigərü-bikəsü-biyar məni.*

*Nari-hicrana yanan sineyi-suzanıma bax,*

*Əşki-xunin tökülən dideyi-giryanıma bax,*

*Möhnətü-dərdü-ələmdən üzülən canıma bax,*

*Qoyma firqətdə bu növ ilə giriftar məni.*

*Al sınıq könlümü, ey Yari-şəhi-mülki-Hicaz,*

*Yandırır qəlbimi, Vallahi bu suz ilə güdaz,*

*Nə anam var, nə bacım var eləyim onlara naz,*

*Oldürər axırı bu, möhnətü-əhzar məni.*

*Rəməqim şiddət edəndə kim edər dərmanı,*

*Kim qılar nalə açıb türreyi-müşkəfşanı,*

*Əgər ölsəm, məni-zarə kim oxur Qur'anı,*

*Bir kəsim yoxdu, dəxi etməgilən xar məni.*

***Yoxdu bir kimsə ola kim, məni-biyarə pənah,***
***Həmdəmim guşeyi-qəmxanədə var şöleyi-ah,***
***Haçanacan eləyim yollara həsrətlə neqah,***
***Vətənimdə elədin həsrəti-didar məni.***

***Bir Əli Əkbər idi dərdimə dərmanü-təbib,***
***Qaldı canım bu vilayatdə diləfgarü-qərib,***
***Qorxuram həsrət öləm, olmaya didarı nəsib,***
***Salmaya yadına axır o vəfadar məni.***

***Rəhm qıl halıma, ey şiələrin Mövlası,***
***Canımı aldı qəmü-dərdü-ələm sevdası,***
***Qoy yanımda Əli Əkbər ilən Abbası,***
***Vergilən can ilə onlara pərəsdar məni.***

***Gər qəbul eyləyəsən ərzimi, ey ərşü-fəraş,***
***Razı olma yana əhvalıma həm dağ ilə daş,***
***Gəl məni də aparıb qızlaruva qoy qaravaş,***
***Arayıb qoyma özündən belə biyar məni.***

*Canımı mərdüməki-dideyi-xunab edərəm,*
*Göz yaşımla o biyabanları sirab edərəm,*
*Razıyam, hər nə cəfa eyləsələr tab edərəm,*
*Çəksə zəncirə, əgər, Şümri-sitəmkar məni.*

*Bu fəna dəhridə çün bikəsü-biyarəm mən,*
*Dərdimə yoxdu dəva, aləmara xarəm mən,*
*Bir pərü-balı sınan Qumriyi-gülzarəm mən,*
*Görməyin möhnətü-hicranə sərdar məni.*



## *Seyyid Əzim Şirvani*

سیدا مقصد خود خواه ز ایوان نجفهیچ خواهنده از این در نرود بیمقصود

***[Seyyida məqsəde xod xah ze eyvane Nəcəf***
***Hiç xahənde əz in dər nə rəvəd bi məqsud]***

***Seyyid, diləyini Nəcəf dərgahından dilə.***
***Heç bir dilək diləyən bu qapıdan əliboş getməz...***

***Şairin qəbri üstündə yazılmış misralar***

***

***Qasimim, zülfi-xəmin üzdə hüveyda görünür,***
***Bu əcəbdir ki, gün üzrə şəbi-yəlda görünür.***

***Ey süpehri-şərəf üzrə məhi-tabanım oğul,***
***Zülməti-hicrivə qoydun məni cananım oğul,***
***Ey xəti-Xızrı ləbi çeşmeyi-heyvanım oğul,***
***Ləbi-lə'lində sənin nitqi-Məsiha görünür.***

***Kakilin həbli-mətinimdi, üzün ayeyi-nur,***
***Qaf məsturi-cəbinimdi, kitabi-məstur.***
***Şə'şəati-ruxi-pakin eləyib dəhrə zühur,***
***Kərbəla Tura dönüb, nuri-təcəlla görünür.***

***Oxşayırsan, ey oğul, gərçi məhi-ənvərə sən,***
***Al ələ tiği-hilalın, vur özün ləşkərə sən,***
***Çün gərək canını qurban verəsən Əkbərə sən,***
***Əkbərin qətlinə bu qövm mühəyya görünür.***

*Sənə qurban olum, ey novgüli-gülzari-Həsən,*
*Səni qurban verirəm şövqilə ol sərvərə mən.*
*Leyli öz Əkbərinin gərdəninə saldı kəfən,*
*Çeşminə indi nə dünyavü nə üqba görünür.*

*Cəddimə verdi xəbər Həqq, Zəkəriyya xəbərin,*
*Təşt içində kəsilən başı o Yəhya xəbərin.*
*Bil bu ayati, oğul, rəmz ilə iyma xəbərin,*
*Zahiri təşnə Hüseyn, batini Yəhya görünür.*

*"Kafiha"da var, oğul, bir neçə məxfi mə'na,*
*"Kafi'dir Kərbübəla, "Ha"yı həlaki-şühəda,*
*"Ya" yəqin eşqidi bu təşnələbi-Kərbü-bəla,*
*"Sad"i səbr olmasa, ey təşnə, nə məna görünür?*

*Seyyida, riştəyə çəkdin yenə yüz dürri-Ədən,*
*Sənə məhşərdə şəfaət eləsin ibn Həsən.*
*Mərhəbalar sənə, ey şairi-e'cazsüxən,*
*Səndə feyzi-nəzər-həzrəti-Mövla görünür.*

***

***Ey nuri səmavatu-zəmin, gərçi nihansan,***
***Amma nəzəri arifü-danadə əyansan.***

***Batin gözünün yox səni görməgdə qüsuri,***
***Zahir gözü görməz səni, əlbəttə, nihansan.***

***Zatın eləyib cümleyi-əşyadə təcəlla,***
***Musa gözünə Turi-həqiqətdə əyansan.***

***Bir Adəmü-İsadə degil nəfxeyi-ruhun,***
***Aləm hamı qalibdi, sən ol qalibə cansan.***

***Kəssən nəzəri-feyzini bir ləhzə cəhandan,***
***Nabud olur aləm, sən ona ruhi-rəvansan.***

***Gəh badi-səba tək verisən gülşənə rövnəq,***
***Gəh soldurusan gülləri, sən badi-xəzansan.***

***Sən qaimi-bizzatsən, aləm hamı bilqeyr***
***Xəllaqi səmavatü-zəmin, kövnü-məkansan.***

*Min bir adıvun hər biri bir aşiqə munis,*
*Tapmaz Səni bir kəs, yenə binamü-nişansan.*

*Ey Seyyidi-pir, eylə meyi-vəhdətə rəğbət,*
*İstərsən əgər olmağa həmvarə cavan, sən.*



***Şəhriyar***

***Qanlı dırnaqlarılan ingilis əl qatdı bizə,***
***Baxısan rus da Arazdan keçir İran apara.***

***Aradan bir də bizi bölsələr ərbablarımız***
***Qorxuram qoymayalar Təbrizi Tehran apara...***

***

***Ayırıb şeytan əlifbası sizi Allahdan,***
***Öz əlifbamızı yazsaz tapasız Quranı,***
***Dünya beş gündür, cəhənnəm də olursa olsun,***
***Gəl cəhad ilə tapaq cənnəti-cavidanı.***

***Türklərin qeyrəti Türkiyyədə, Qafqazda gərək,***
***Qaynasın indi ki, İslam da cəhad meydanıdır***
***Kərbəla faciəsi təcdid olur İranda,***
***Qeyrətün qaynadı, bil ki, bu Hüseynin qanıdır.***

***Akifin şerinə bax, gör nələr etmiş bizə küfr!***
***Hər qədəm bir quyu qazmış, nə də salmış dərinə.***
***Biz də İslama qəyitdiğdə gəlin əlbir olaq,***
***Türklərin hər iki dünyası qəyitsin yerinə.***

***Qovzayın nəreyi təkbirlə müsəlmanlığızı,***
***Fars tək sabit edin İslama Səlmanlığızı,***
***Farsı Türkə-Ərəbə faiq edən Səlmandır,***
***Göstərin siz də bu Bilqeysə Süleymanlığızı.***

***Hər kim Allahına baş əyməsə heyvan qalacaq,***

***Siz də heyvanlara bir bildirin insanlığızı!***

*******

***Yıxılıb dinin evi rehlət edib Xətme-Rüsul***

***Çırpılıb din qapısı Həzrəti Zəhra başına***

***Siqt olub Möhsini, Zəhra özü də oldu şəhid***

***Külələndi o zamandan bəri dünya başına***

***Kərbəlaçün də elə onda əkin başlandı***

***Ta qiyamət nə qopa Zeynəbi-Kübra başına***

***Müddəi olmadı fərmane-Ğədirə təslim***

***Gör nə tufan gətirib ümməti, Taha başına***

***Məşvərət əmri-İlahidə olurmu heyhat?!...***

***Çəkdilər cəbrilə Mövlanı da şura başına...***

***Həzrəti Fatimənin qəbri də məhcur oldu***

***Çaduri-ismətini saldı sürəyya başına***

***Ümmət olmazsa imamət də olar xanəneşin***

***Dolanar Kəbə də getdikcə kəlisa başına***

*Bu olan işdi ki axşam çağı, Allah çobanı*
*Çöldə, Allah davarın, boşlaya bica başına?!...*

*Ümmətin əksəri misdaqe “ləqəd həqqəlqövl”*
*O həvari yığışammazdı Məsiha başına*

*Müslimin dörd nəfəri mömin olub Səlmantək*
*Yusifin eşqi düşər dildə Züleyxa başına*

*Kölgəsi taci-səadət, bu şəhadət şövqü*
*Özü bir quş ki, qonub sədrevü-Tuba başına*

*Şəhriyar gəldi Hüseynin səsi, Aşurası*
*Ta düşə eşqi-şəhadət dili-şeyda başına*



## *Aşıq Ələsgər*

***Mehdinin şəninə gəlibdi ayat,***
***İsminə mömінlər verir salavat.***
***Yovmi-ərəsətdə etmə xəcalat,***
***Yandırma odlara qul Ələsgəri!***

***

***İbtidada “əlif” – Allah, “Be” – birliyə dəlalətdi.***
***“Te” – təkdi vahidi-yekta, Arif bu elmə bələddi.***

***“Se” – sabitdi doğru yola, “Cim” – ucadı, bax calala,***
***“He” – mehribandı halala, Münkir ondan xəcalətdi.***

***“Xe” – birdi Xaliqi-əkbər, “Dal” – doğru doqquz fələklər,***
***“Zal” – zikr eylə dildə əzbər, “Re” – rəsulumuz Əhməddi.***

***“Ze” – zəbanı aç Xudaya, “Sin” – salam et, getməz zaya,***
***“Şin” – şövq elə o Mövlaya, Qeyri söhbət mə'siyətdi.***

***“Sad” – səbri Şahi-Heydərə, “Zad” – zərbin vurdu Əntərə,***
***“Ta” – tə'rif çıxdı göylərə, Ağam kani-şücaətdi.***

***“Za” – zülm edəcək düşmənə, “Eyn” – həyati-çeşmanə,***
***“Ğeyn” – ğül-ğüli-dövranə, “Fe” – fəna, “qaf” – qiyamətdi.***

***“Kaf” – “kun” ilə tutub qərar, “Lam” – lal, necə hesab verər,***
***“Mim” – möminə yol göstərər, İsmi-paki Məhəmməddi.***

***“Nun” – nida eylər hər zaman, “He” – hamıya yetər fərman,***
***“Vav” – vay deyər, yatma, oyan, Sanma səhni-zərafətdi.***

***“Lam – əlifla” – birdi Allah, “Ye” – yekdi adil padişah.***
***Ələsgər, tutduğun günah, Bağışlansa, çox hörmətdi.***

***

***İbtida "əlif"dən dərsin almışam,***
***Ələst aləmində demişəm "bəli",***
***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Muhəmməd, birisi Əli...***

***Əlidən dərs aldım eylədim əzbər,***
***Ərşin sütunudur yerlərələngər,***
***Fatimeyi-Zəhra şafeyi-məhşər,***
***Onun seçdim gözəllərin gözəli...***

***Həsən Əl-Müctəba çoxdur şövkəti,***
***Ərşin güşvarəsi, göyün zinəti,***
***Məhşər günü darda qoymaz ümməti,***
***Əsğər qucağında şah Hüseyn gəli...***

***Xəliqi-ləmyəzəl vahid əl-yektay,***
***Qüdrətindən kamal verib mənə pay,***
***Oxu"əlif", "ğeyn"i, eylə haqqı-say,***
***Arif seçər əbcəd ilə cəm əli.***

***Günahım dəryadı, özüm qanmışam,***

***Tutduğum işlərdən çox utanmışam,***

***Püşti-pənahına daldalanmışam,***

***Adım Ələsgərdi, əslim - göyçəli.***




## *Əbülhəsən Raci*

***Yaz mədhini, Raci, nə qədər olsa müyəssər,***
***Övsafi-Əli aləmə ifşa gərək olsun...***

***

***Belə əhd eyləmişəm ey bacı cananım ilə,***

***Ərseyi-Kərbübəladə boyanım qanım ilə.***

***Çünki, bu cami-əcəldə şəkərü-şəhdim var***

***Bu səbəbdən, susuz ölməyliyə çox cəhdim var***

***Aləmi-Zərridə, canan ilə bir əhdim var***

***Varam öz eylədiyim, əhd ilə peymanım ilən.***

***Bacı əhdim budu, bu, çöldə gərək qanə batam***

***Qanımı, Əkbərimin qanına şövq ilə qatam***

***Can verib təşnə, gərək isti qum üstündə yatam***

***Cismi-məcruhim ilən, sineyi-suzanım ilən***

***Budur əhdim ki, quram burda gərək məclisi-raz.***

***Qan içində eliyəm, Həqq ilə bir razü-niyaz***

***Can verən vəqtidə, meydanda qılam bacı, namaz***

***Dəstəmazım ola bu şərt ilə öz qanım ilən***

***Düşdü İbrahim əgər, şövqi-həvayi-eşqə,***
***Etmədi tab, vəli dərdü bəlayi-eşqə***
***Bircə qurban ilə o, gəldi Minayi-eşqə,***
***Gəlmişəm mən bura, yetmiş iki qurbanım ilən.***

***Çəkmərəm qəm dəmi-şəmşiridə, şəmşir nədür?***
***Xəncərü tiğ nədür, nizə nədür, tir nədür?***
***Məclisi-vəslə qədəm qoymağa tə'xir nədür?***
***Mən bu bəzmə gedirəm, başım ilən... canım ilən...***

***Zövrəqi-cismimə var lücceyi-xun içrə nicat,***
***Təşneyi-eşqə verir suzi-ətəş, abi-həyat***
***İçmərəm, gər tuta dünya üzünü abi-Fərat***
***Bəzmi-vəslə gedirəm, bu ləb-ətşanım ilən.***

***Həqq yolunda susuz ölmək, demə zəhmətdi mənə,***
***Gözümə ox dəyə gəl, eyni-məhəbbətdi mənə,***
***Aləmi-eşqidə, hər zəhməti rahətdi mənə,***
***Dözərəm, yüz belə zəhmətlərə bir canım ilən.***

***Çəkmərəm minnət əduvdən, çəkərəm bu ətəşi,***
***Bacı, eşq aləminin çoxdu belə kəşməkəşi,***
***Səni bazarə çəkəllər, çü əsiri-Həbəşi***
***Şami-şum içrə, əyali-Şəhi-Mərdanım ilən.***

***Əhli-Kufə, yetirir zülmünü itmamə, bacı,***
***Bədənimdə dəxi qoymazla qala camə, bacı,***
***Nizələrdə aparallar başımı Şamə, bacı,***
***Bədənim yerdə qalar, peykəri-üryanım ilən.***

***Şamidə məclisi-işrət quralar, söz demərəm,***
***Kuçəvü-bamidə səf-səf duralar, söz demərəm,***
***Xeyziran çubi nə qədri vuralar, söz demərəm***
***Bəzmi-əğyaridə mən, bu ləbi-dəndanım ilən.***

***Zeynəb ərz eylədi-qardaş, bilirəm ruzi-cəza,***
***Sən ilə həşrə gələr başlar əlində, şühəda,***
***Üsəranı başıma cəm edərəm mən də, əxa,***
***Gələrəm məhşərə, bu zülfi-pərişanım ilən.***

***Ümmətə cümlə şəfaət edərəm mən, sən ilən,***

***Kərbəladə bulaşan qanuva pirahən ilən,***

***Şimr-əduvvun yaxasından tutaram, şivən ilən,***

***İstərəm qanuvi, bu çaki-giribanım ilən.***

***Ya Huseyn, hövli-qiyamətdə yetiş imdadə,***

***Raciyəm, bircə ümidim sənə var üqbadə,***

***Ağlaram, olsa həyatım nə qədər dünyadə,***

***Gecə-gündüz, sənə bu dideyi-giryanım ilən.***

***

***Ey cəmaət, vurmayın çox nizəvü-xəncər mənə,***

***Bəsdü bu sinəmdəкi daği-Əli Əкbər mənə.***

***Bir tərəfdən ləşkəri-ənduh edər hər dəm hücum,***

***Bir tərəfdən fovci-əşgi-dideyi-pürnəm hücum,***

***Bir tərəfdən üstümə eylər sipahi-qəm hücum,***

***Bir tərəfdən olmayın siz də hücum-avər mənə.***

***Su tək etdüz cari Əbbasi-dilavər qanını,***

***Zülm ilə tökdüz yerə Ovn ilə Cəfər qanını,***

***Almaram məhşər günü şəhzadə Əkbər qanını,***

***Etmiyün bu Kərbəlani ərseyi-məhşər mənə.***

***Tikmişəm meydani-eşqi-həqqidə beydəq yerə,***

***Vermişəm bu qaməti-movzun ilə rövnəq yerə,***

***Həqq imamın öldürürsüz, neyləyib, nahəq yerə?!***

***Mən ki, Həqq-Həqq söylərəm, kim xarici söylər mənə?!***

*Covhəri-cismim mənim olmuş mürəkkəb eşq ilən,*
*Olmuşam «qalu bəla»də mən müləqqəb eşq ilən,*
*Saqiyani-aləmi-məna ləbaləb eşq ilən,*
*Verdilər qəm məclisində bir dolu sağər mənə.*

*Tərki-kəsrət eyliyib, oldum meyi-vəhdətlə məst,*
*Hiç əlaqəm qalmasın əhd etmişəm ruzi-«ələst»,*
*Eyləməz məstanə aşiq əhdü-peymanın şikəst,*
*Bu Hüseyn, bu Kərbəla, bu siz, vurun xəncər mənə.*

*Ol qədər zülm eyləyün, cövri-cəfadən ta doyun,*
*Öldürün təşnə, libasi-rəxtimi yeksər soyun.*
*Can verən vəqtimdə əmma, ey cəmaət, siz qoyun,*
*Bir doyunca ağlasın ol Zeynəbi-müztər mənə.*

*Əldə can nəqdin tutan aşiq firavandur bu gün,*
*Can mətai eşqi-bazarində ərzandur bu gün,*
*Qasimu-Əbbasu-Əkbər xakə-yeksandur bugün,*
*Var şitabim qanlu topraqim ola bəstər mənə.*

***Mən əzəl gündən şəhadət əmrini etdim qəbul,***
***Can verən vəqt başim üstə olmasun ali-Rəsul,***
***Nə səhabə, nə kömək, nə qövmü qardaş, nə oğul,***
***Kərbəladə qalmasun bir yari, bir yavər mənə.***

***Eşq ilən təxmir olubdur əsli-bünyadım mənim,***
***Eşqidür bu abu-xakü-atəşü-badim mənim,***
***Məktəbi-qəmdə şəhadət dərsin ustadım mənim***
***Hərfi-hərfi, nöqtə-nöqtə eyləyüb əzbər mənə.***

***Bəzmi-qəmdə ağlasun daim Peyəmbər ümməti,***
***Şiəyi-xasun nə qədri var əlində fürsəti,***
***Almağa məhşər günü, Raci, mətai-cənnəti,***
***Bir duri-şəhvar olur bu çeşmi-əşki-tər mənə.***



*Şah İsmayıl Səfəvi*

***Yəqin bil ki, Xudaidir Xətai***
***Muhəmməd Mustafaidir Xətai***
***Səfi nəsli, Cüneydi Heydər oğlu***
***Əliyyəl Mürtəzaidir Xətai***

***

***Sufi, məzhəbimin nəyin sorarsan?***

***Biz Muhəmməd Əli deyənlərdənik***

***Gözlüyə gizli yox, sən nə deyərsən?***

***Biz Muhəmməd Əli deyənlərdənik***

***Biz tacir deyilik, alıb-satmarıq,***

***Ərkan gözətərik yoldan sapmarıq,***

***Könlümüz qənidir kibir tutmarıq,***

***Biz Muhəmməd-Əli deyənlərdənik.***

***Baharda açılar qönçə gülümüz***

***Ol dərgaha doğru gedər yolumuz***

***On iki imam adın deyər dilimiz***

***Biz Məhəmməd Əli deyənlərdənik***

***Əynimizə qırmızılar geyərik***

***Halımızca hər mənadan anlarıq***

***Qatarda İmam Cəfərə vararıq***

***Biz Məhəmməd Əli deyənlərdənik***

***Şah Xətayim, eydür Məhəmməd Əli***

***Onlardan öyrəndik ərkanə yolu***

***Bir ulu dərgahdır sürün bu yolu***

***Biz Məhəmməd Əli deyənlərdənik.***

***

***Din Muhəmməd dinidir, səlli əla sahib vüqar,***

***Kövsərin suyin verən şahım Əlidir, şahsüvar.***

***Həm səxidir, həm səxadır, kainatın eynidir,***

***Kimsə bilməz, gizlidir, sirrin bilür Pərvərdigar.***

***Dedilər kim, bu cəhanın nuri kimdir, kim ola?***

***Mir Həsəndir, şah Hüseynin alı oldu yadigar.***

***Daş yarıldı, çıxdı Düldül, yəhərü-yügən ilə,***

***Ey münafiq, yola gəlgil, eyləmə Şahdan kənar.***

***Harda olsan, ey Xətai, sən bu ləfzi söyləgil,***

***"La fəta illa Əli, la seyfə illa Zülfüqar "***




## *Seyyid İmadəddin Nəsimi*

### *Surəti-nəqşində hər kim görmədi Nəqqaşını,*
### *Vahibi-Surət onun gözsüz yaratmış başını*

***

***Dinləgil bu sözü ki, candır söz,***
***Aliyü asimanməkandır söz.***

***Şeş cəhətdən münəzzəh anlavü bax,***
***Şöylə kim, xaliqi-cahandır söz.***

***Nazilü münzil anla kim, birdir,***
***Kəndi kənduyə tərcümandır söz.***

***Tulü ərz ilə ümqü bulunmaz***
***Yəni bihəddü binişandır söz.***

***Bu hədisə nəzər qıl, ey aqil,***
***Anlayasan ki, bigümandır söz.***

***Ərşi-rəhman dedi nəbi könülə,***
***Çünki gördü, könüldə kandır söz.***

***Dedi ya kafüha, əyzə-bikə,***
***Çün Əli bildi, müstəandır söz.***

***Qeyri-məxluqdur, nə demək olur,***
***Anla kim, imdi rayigandır söz.***

***Əqli-küll ərşü kürsü, lövhü qələm,***
***Çar ünsür, nöh asimandır söz.***

***Zahirü batin, əvvəlü axir,***
***Aşikaravü həm nihandır söz.***

***Ey üqulu nəsəb edən isbat,***
***Qamuya söz de kim, hamandır söz.***

***Kafü nundan vücuda gəldi cahan,***
***Əgər anlar isən, əyandır söz.***

***İsiyi-pak, Adəmü Əhməd,***
***Mehdiyi-Sahibəz-Zəmandır söz.***

***Bu bəyanı dilərsən anlayasan***
***Kim, necəsi filan-filandır söz.***

***"Cavidannamə"yi gətirgil ələ,***
***Ta biləsən ki, nəsnə candır söz.***

***Sözə bu izzü cah yetməzmi,***
***K'aydalar Fəzli-qeybdandır söz.***

***Aqil isən sözünü müxtəsər et,***
***Ey Nəsimi, çü bigirandır söz.***

***

*Kim ki, bildi bu siratəl - müstəqimin rahını,*

*Əhli - irfan olduvi bildi yəqin Allahını.*

*Göydəki cümlə məlaik Adəmə qıldı sücud,*

*Həqq - təaladan gör anın bunca izzü cahını.*

*Həq buyurmuş ərzilullah aqibət lil - muttəqi,*

*Çün deyilsən muttəqi, mülk etmə ərzullahını.*

*Çün Əmirəl - möminin mən nöqteyi - bayam dedi,*

*Kim ki, hərfin sirrini bilməz nə bilsin şahını.*

*Kulli - şəy'in halik oldu, qaldı illa vəchəhu,*

*Hər yanadan baxdı arif, gördü vəchullahını.*

*Ey Nəsimi, hər kim öz nəfsindən oldu baxəbər,*

*Cümleyi - əşyadə zahir gördü nitqullahını.*



## *Seyyid Əbülqasim Nəbati*

***Xosrovu, Şirini, Fərhadı Nizamidən soruş,***
***Kim, Nəbati daim eylər, Şahi-Mərdandan hədis…***

***

*Saqiya, dur dolanım başına, gəl dövranə,*
*Cami-zərrini götür, bircə dolan məstanə.*

*Tari-zülfün kimi sən ki, məni bican elədin,*
*Gətir ol ruhi-rəvan ilə məni bir canə.*

*Görməsin özgə gözəllər məni Məcnuni məgər,*
*Salıb ol kafəri-birəhm məni zindanə.*

*Eşqdən gör nə əcəb nəfə yetişdim, vah, vah!*
*Aqili-əsr ikən etdi məni də divanə.*

*Qorxma nirani-fəraqın şərərindən, ey gül,*
*Sidqilən tut üzünü bircə şahi-Mərdanə.*

*İsmi-ə'zəm deyilən ismi-Əlidir, billah,*
*Gəzmə bica yerə Nəsnas kimi hər yanə.*

*Etməz iqrar, Nəbati, bu sözə zahidi-dun,*
*Gəlməz imanə yəqin and içəsən Qur'anə.*

***

***Mənim aləmdə sultanım Əlidir,***
***Mənim miri-cahanbanım Əlidir.***

***Nə Dara tanıram mən, nə İsgəndər,***
***Mənim Fəğfurü-xaqanım Əlidir.***

***Behişti zahidə verdim sərasər,***
***Mənim gülzari-rizvanım Əlidir.***

***Əgər hər kimsənin bir şahi olsa,***
***Mənim də şahi-şahanım Əlidir.***

***Tutub hər mürğ bir gülşəndə məskən,***
***Mənim də baği-bostanım Əlidir.***

***Məni bu ismi-ə'zəm etdi natiq,***
***Mənim məcmui-divanım Əlidir.***

***Əgər, xəncər çəkər düşmən, qəm etmə,***
***Mənim də tiği-üryanım Əlidir.***

***Mənim sərmayeyi-ömrümdü Mövla,***
***Mənim cismimdə bu canım Əlidir.***

***Mənim yox ondan özgə zikr-fikrim,***
***Mənim bu canda cananım Əlidir.***

***Mənim kəştiyi-Nuhum Mürtəzadır,***
***Mənim Musayi-İmranım Əlidir.***

***Mənə zülmət yolun göstərmə, ey Xızr,***
***Mənim yənbui-heyəvanım Əlidir.***

***Mənim Ruhullahım oldu Yədullah.***
***Mənim şahi-Süleymanım Əlidir.***

***Nədir bağı-cinunü, nəxli-Tuba,***
***Mənim sərvi-xuramanım Əlidir.***

***Məni seyri-gülüstanə aparma,***
***Mənim seyri-gülüstanım Əlidir.***

***Mənim piri-muğanım şahi-Mərdan,***

***Mənim saqiyyi-məstanım Əlidir.***

***Mənim ömrüm, mənim ruhi-rəvanım,***

***Mənim mürği-süxəndanım Əlidir.***

***Mənim ərşim, mənim fərşim odur, o!***

***Mənim mehri-füruzanım Əlidir.***

***Mənim lövhü-qələm, kürsi, səririm,***

***Mənim övrəngi-keyvanım Əlidir.***

***Mənim udum, mənim ru'du-sürudum,***

***Mənim həm rahi-reyhanım Əlidir.***

***Mənim bəzmi-nişatü-eyşü-nuşum,***

***Mənim şəm'i-şəbistanım Əlidir.***

***Mənim cami-meyü-nöqlü-kəbabım,***

***Mənim salari-eyvanım Əlidir.***

***Mənim mülküm, mənim malü-mənalım,***
***Mənim həm hökmü fərmanım Əlidir.***

***Mənim təxtim, mənim tacü-rəvaqım,***
***Mənim baniyi-bünyanım Əlidir.***

***Mənim əbrim, mənim bərqi-cəhəndim,***
***Mənim rə'di-xüruşanım Əlidir.***

***Mənim lə'lim, mənim dürri-xoşabım,***
***Mənim barani-neysanım Əlidir.***

***O şəhbazin əsiri mürği-canım,***
***Mənim şahinü-tərlanım Əlidir.***

***Deyər daim dilində Xançobani,***
***Mənim hər dərdə dərmanım Əlidir.***



**Nizami Gəncəvi**

**Həme aləm tən əst və İran del**

**(Bütün dünya bədən, İran ürəkdir)**

**Nist quyənde zin qiyas xəcel**

**(Natiq bu bənzətmədən utanmaz)**

**Çün ke İran del zəmin başəd**

**(Çünki, İran yerin ürəyi olanda)**

**Del ze tən be bud yəqin başəd**

**(Şübhəsiz ki, ürək bədəndən daha üstündür)**

***

***Nizami Gəncəvinin "Yeddi Gözəl" əsəri belə başlayır;***

***Ey bu kainatın açan gözünü***

***Yoxdur Səndən qabaq duyan özünü***

***Sən ey Nizamini bəsləyən Allah***

***Qovma ki, qapına gətirmiş pənah***

…

***"Leyli Məcnun" əsəri belə başlayır;***

***Ey adı ən gözəl başlanğıc olan,***

***Adınla başlanır yazdığım dastan.***

…

***"İsgəndərnamə" əsəri belə başlayır;***

***Ey tanrı, dünyaya sənsən padşah,***

***Biz kiçik bəndəyik, sən böyük Allah.***

***Tək sənə sığınır hər yüksək, alçaq,***

***Hər varlıq yoxluqdur, Sən varsan ancaq.***

***Yuxarı, aşağı - hər gözə çarpan***

***Nə varsa, onları Sənsən yaradan.***

***…***

***"Xosrov və Şirin" əsəri belə başlayır;***

***Kömək qapısını aç, ey yaradan!***
***Göstər Nizamiyə düz yolu hər an!***
***Onunla mənaya özün qüdrət ver!***
***Səadət mülkünə gözəl zinət ver!***

***…***

***"Sirlər Xəzinəsi" əsəri belə başlayır;***

***Şəfqətli, ədalətli tanrının adı ki var,***
***Hikmət xəzinəsini açan, açardır, açar.***
***Hər sözün, düşüncənin Odur əvvəli, sonu.***
***Nə söyləsən, tanrının adıyla qurtar onu...***

***

***Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərində peyğəmbər tərifi;***

***Varlıq bağçasının ilk gülü sənsən,***
***Zamanın sonuncu sərkərdəsisən.***
***Kifayət mülkünə sənsən hökmüdar,***
***Vilayət hökmüdür verdiyin qərar.***
***Hər kəs lovğalıqla çıxsa qarşına,***
***Bir ədəb qılıncı enər başına.***
***Gözlər işıq alır ayaq tozundan,***
***Aləm işıqlanır daima ondan.***
***Səndən işığını almayan bir şam***
***Sönər öz yeliylə, qaralar müdam.***

**…**

***Nizami Gəncəvinin "Yeddi Gözəl" əsərində peyğəmbər tərifi***

***Nəfəsi havaya saçdıqca ənbər,***
***Qurumuş ağaclar oldu tazə-tər,***
***Həmən qaldıraraq baş xurma verdi,***
***Tikan ağac oldu, yaş xurma verdi.***

***Ayın almasını iki parçaya***
***Bölüb, yetirdisə o, xətər aya***
***Nurla doldu gözü sitarələrin,***
***Tanrı bu hünərə dedi: - Afərin!***
***O ki, hər bir işi ölçüb-biçəndir,***
***Məhəmməd seçilən, Allah seçəndir...***

**…**

***Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində peyğəmbər tərifi;***

***Seçilmiş elçidir ulu tanrıdan,***
***Möhkəm hökmləri xalqa çatdıran,***
***Qiymətli tacıdır azadələrin,***
***Ən dəyərlisidir bütün bəşərin.***
***Əzəldən əbədə bütün yaranmış,***
***Məhəmməd adından almışdır naxış.***
***Əqlin qanadına tək odur çıraq,***
***Varlığa işığı o verir ancaq.***
***Zamindir qaraya, ağa bu rəhbər,***
***Şəfaət edəndir qopunca məhşər.***

…

***Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində peyğəmbər tərifi;***

***Vəfa meydanının qabaqcılıdır,***
***Nəbilərə rəhbər, başcıl sayılır.***
***Günahkar ümməti qoymaz xəcalət,***
***Eyləyər onlara daim şəfaət.***
***Sübhün bağçasına ətirlər saçar,***
***Odur hər ilahi xəznəyə açar.***
***Nə qədər yetimi sevdi, saxladı,***
***"Dürri-yetim" qaldı odur ki, adı.***

…

***Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərində peyğəmbər tərifi;***

***Peyğəmbərlik bayrağı göylərə qalxan vədə***
***Sonuncu peyğəmbərlik verildi Muhəmmədə***
***Sükutu səni yaxar, göz kor olar tüstünə.***
***İstəyi pərdə çəkər günahların üstünə.***
***Ədalətlə yatırar hər qovğanı, savaşı,***
***Onu sevməmək olmaz, sevəni sanma naşı.***
***Varlıq dəyirmanını fırlandıran oxdu, ox,***
***Üstümüzdə ağadır, səxavəti çoxdu, çox.***



# Abbasqulu Yəhyəvi Ərdəbili

## Ta'cüş-şüəra (şairlərin tacı)

*Gərək zühur edə Həqq, səc'i, vəzni, qafiyədən*
*Və gər nə şairi, şe'ri, şüarə ar olsun...*

***

***Ay batdı, sübh açıldı, Zeynəb nəvayə gəldi,***

***Zəhra dedi-Hüseyn vay! Aləm sədayə gəldi.***

***Çün, yıxdılar atından Sultani-təşnə kami,***

***Dünyayə oldu elan Qutiləl-Hüseyn pəyami,***

***Cənnatidən eşitdi Peyğəmbəri-Girami,***

***Nə'leynisiz, əbasız Kərbü-bəlayə gəldi.***

***Peymanə amil oldu, Cananə verdi canın,***

***Şövqi-şərafət ilən teyy etdi imtəhanın,***

***Şümri-dəğa tökəndə xaki-miyanə qanın,***

***Üz tutdu asimanə, həmdü-sənayə gəldi.***

***Xuni-Xuda töküldü qudali-Kərbəlayə,***

***Yerlər təzəlzül etdi, rişə düşüb səmayə,***

***Kərrubiyani-lahut ağlaşdı bu bəlayə,***

***Yel əsdi, gün tutuldu, zülmət fəzayə gəldi.***

***Xuni-Hüseyn boğazdan cari olan zəmanı,***

***Cibril apardı ərşə bir şişədə o qanı,***

***Ol şişədən nümudar oldu bəla nişanı,***
***Qovzandı buyi-matəm, əhli-səmayə gəldi.***

***Nuri-Həqq odu lame başsız qalan bədəndə,***
***Rə'si-Hüseyni-məzlum sərnizəyə gedəndə,***
***Badi-siyah əsəndə, yel zəlzələ edəndə,***
***Sındı nizami-dünya, həddi-fənayə gəldi.***

***Nəzdik idi yerindən çıxsun mədari-dünya,***
***Ali-Üməyyə etsün dəsturi-şə'ri mülğa,***
***Sərnizədə edəndə rə'si-Hüseyn təcəlla,***
***Dini-Muhəmməd üstə nurani-sayə gəldi.***

***Fərmani-qarət ilən təlli aşub ərəblər,***
***Gördü o hayi-huyi ətfali-zari-müztər,***
***Qaçdıla xeyməgahə, yerdən ucaldı səslər,***
***Əmmə, amandu, ləşgər xeyməsərayə gəldi.***

***Səhranəvərd ərəblər xərgahi yandıranda,***
***Başı açıq hərəmlər oddan çıxub qaçanda,***
***Qalxıb buxari-ataş, gizləndilər dumanda,***
***Tüstü ucaldı, qarə pərdə həvayə gəldi.***

*Bir xırda qız qaçırdı, tutmuş alov əbasın,*
*Mərdi-yəhudi tutdu, xamuş edib libasın,*
*Gətdi ələ Hüseynün dilbəndinün rizasın,*
*Əhsən o şeyxə, müşgül vəqtə hərayə gəldi.*

*Gər etməsəydi Zeynəb nəsli-Hüseynə imdad,*
*Olmuşdu od içində suzan İmami-Səccad,*
*Qıldı rəşadətilən oddan İmami azad,*
*Bir tazə zindəganlıq Zeynəl-İbadə gəldi.*

*Zəhra gəzərdi gündüz ətrafi macəradə,*
*Ta Kufəyə Hüseynün getdi başı cidadə,*
*Nə'şi-Hüseyni axşam başsız qoyub aradə,*
*Gün batcaqun o xatun mətbəxsərayə gəldi.*

*Hurani-bağı-cənnat məhzun giriftə sima,*
*Həvva, Xədicə xatun, Məryəm, cənabi-Sara,*
*Aşüftə-mu, siyəhpuş, dillərdə - Va Hüseyn va,*
*Zəhrayə həmdəm olsun, bəzmi-əzayə gəldi.*

***Əlli üç il qapunda, var Yəhyəvi, Hüseyn can,***

***Nohə yazub, ğəmündə olmuş mərizü nalan,***

***Dəsti-mübarəkünlə dərdinə eylə dərman,***

***Ümmidi-səhhət eylə, babi-şəfayə gəldi.***

***

***Mən bilirəm ki, şadisən, qərqi-bəliyyəsən Hüseyn***

***Xətmi-Rəsulidən mənə töhfə hədiyyəsən Hüseyn***

***Nəfsi-zəkiyyəsən Hüseyn, əbdi-rəziyyəsən Hüseyn***

***Layiqi-təxtü-pərçəmü, taci-əliyyəsən Hüseyn***

***Ruzi-cəza başında var əfzəli-xunbəha Hüseyn***

***Gərçi bu mərdümi-şəqi sındırıb ehtiramuvi***

***Müntəqimi-həqiqiyəm hifz edərəm məqamuvi***

***Allam özüm bu qövmidən həşridə intiqamuvi***

***Bəxş edərəm mühibbivi xadimivi qulamuvi***

***Yazdığın əhdnamənin həqqi olar əda Hüseyn***

***Canını bəzli-yar edib çıxdı Hüseyn fəraqətə***

***Qanını tutdu Cəbrəil, şişeyi-səbzi-Cənnətə***

***Ərşidə verdi şişəni xazini-gənci-rəhmətə***

***Rəhməti-Həqq o şişədən tabiş edər qiyamətə***

***Möhrü-münəvvəri onun "şafeü-mən bəka-Hüseyn"***

***Xeymeyi-Ümmü-Məbədə Xətmi-rüsul edib güzər***

***Aldı namaza dəstəmaz Həzrət Seyyidül-bəşər***

***Orda dirəxti-ovsəcə var idi xüşkü-bi səmər***
***Abi-vüzu ilən onun rişəsini edibdi tər***
***Batini bir nəzər salıb cəddi-kərəm nəma Hüseyn***

***Gördülər ol dirəxti çün mənəvi bağiban əkib***
***Rişə atıb qəvilənib qəddi sipehrə baş tökübb***
***Yarpaq açıb budaqların bərgi-zümürrüdə bükübb***
***Şaxələrində gül açıb miyveyi-sorxqun tökübb***
***Bərgilərində nəqş olub: “ya mətərəssəfa Hüseyn”***

***Ay keçib, il keçib neçə müddəti, ruzigar olub***
***Əhli-qəbilə meyvəvü-sayədə kamkar olub***
***Bir günü gördülər ağac, yeksərə tar-mar olub***
***Şaxələrində qan damar, yarpağı ləkkədar olub***
***Meyvələri solub düşər, səsləni(r) yerdə va Hüseyn!***

***Tünd yel əsdi, sındırıb rişəvü-qol-budağını***
***Parçalıyıb səpib çölə kəlləsini, ayağını***
***Gəldi sədayi səhngin, titrədib ərşi taqini:***
***“Fatimənin əzizinin pozdular ittifaqini***
***Oldu həmin dirəxti tək xeymələri fəna Hüseyn”***

***Əhli qəbilə hər gecə sübhə kimi həzin-həzin***

***Orda eşitdilər neçə möhtərəm övrətin səsin***

***Zəccə çəkib deyərdilər: vay bala vay Hüseyn Hüseyn!***

***Cinnü-pəri o məclisin cəm'ən oxurdu növhəsin***

***Koşteyi-əşqiya Hüseyn, vay gülü-Müstəfa Hüseyn***

***Ravi deyir o gün Hüseyn, qətlə yetən zəman idi***

***Beyti-Müqəddəsin çölü tirə qara duman idi***

***Hər ağacın kolun dibi, rişəsi ləxtə qan idi***

***Hər daşın altda çeşmə tək qırmızı qan rəvan idi***

***Qətrələri yazıb yerə "qüslühü-biddima" Hüseyn***

***Dəfni Hüseynə gəldilər qövmi Əsəd qəbilədən***

***Ərz elədilə(r) Seyyidi Sacidə: ey şəhi zəman:***

***İsti su hazır etmişik, sidrü-hənutü-ağ kəfən***

***Qüslün edək icazə ver, dəfn ola nəhr olan bədən***

***Gün qabağında qalmasın bundan əlavə ta Hüseyn***

***Əhli qəbiləyə dedi, varisi-Seyyidül-bəşər:***

***Məgər evdə vəfat edib bu yaralı cənazələr?***

***Qüsl olunub kəfən geyə, tibqi-rüsumi sərbəsər?***
***Siz görü(r)süz ki doğranıb qanə olublar qutəvər***
***Bu dağılan bədənləri Həqqə verib fəda Hüseyn***

***Ağ kəfən istəməz, bu yer Kərbübəla diyarıdır***
***Sərvəri-əhli-cənnətin, cənnətinin bəharıdır***
***Sinələr üstə yarələr gülşəni-ətr-baridir***
***Qüslləri, kəfənləri qandı, çölün qübarıdır***
***Qırmızı ləxtədən geyib, peykərinə qəba Hüseyn***

***Qışda ki qar yağar yerə, torpaq olar sefid qar***
***Meyyitə bənzəyər hamı, dərrəvü-dəştü-kuhsar***
***Yeksərə ağ kəfən geyər, bağü-derəxtü-nəxlizar***
***Sakitü-bi sədа qalar, müntəzirani-nobahar***
***Misli həmin bəhari ki, orda edib bina Hüseyn***

***Əhli qəbilə bu gecə, getməyin istirahətə***
***Diqqət ilə baxın görün, kimdi gələn ziyarətə***
***Qəbriləri təvaf edib növhə deyən cəmaətə***
***–Cəddi, atası, qardaşı su səpəcək bu türbətə***
***Səslənəcəkdi madəri Fatimə, vay balam Hüseyn!***

***Yandı bəhari Müstəfa, düşdü oda bəharələr***
***Gün batıb, asimanidə oldu əyan sitarələr***
***Parə çadırda gizlənib yatdıla(r) mahi-parələr***
***Qarə qəfəsdə həbs olub qarə geyən qənarilər***
***Nəğmələri ürəkdə var: koştiye-əşqiya Hüseyn!***

***Yatdı qoşun, kəsildi səs, sayə çəkildi dövrədən***
***Çıxdı Ruqəyyə xaricə, nisfi şikəstə xeymədən***
***Başı açıq, ayaq yalın, caməsi köhnə pirəhən***
***Qətligəhə tərəf qaçır, yel kimi titrəyir bədən***
***Hər qədəm ağlıyır deyir: hardasan ay baba Hüseyn?***

***Guşeyi-qətligahidən nagəh eşitdi bir səda:***
***Gəzmə bu qanlı ərsəni, sinəmin üstə gəl bala***
***Cəzb edib aşinasını ləhni-sədayi-aşina***
***Xaneyi-eşqidən işıq care olurdu bərməla***
***Oldu çırağı-nur ilən ol qıza rahnəma Hüseyn.***

***Tapdı nişani-nur ilən məqtəl ara babasını***
***Gördü çuxur məkanidə qan bürüyüb yarasını***

***Açdı yaralı şəh iki bazuyi-həqnəmasını***

***Sinəsinə yapışdırıb doxtəri-binəvasını***

***Nisgil ilə dedi o qız: canüvə mən fəda Hüseyn!***

***Harda idin qoşun gəlib xeyməni yandıran zaman***

***At qabağında qızları çöldə dolandıran zaman***

***Məcərü-guşivarədən ötrü qovub yoran zaman***

***Rəxtimizi soyan zaman, qəmçi ilə vuran zaman***

***Vermədin, eylərəm giley, naləmizə səda Hüseyn***

***Bir də məriz qardaşım od tutub odlanan zaman***

***Vurdu bibim özün oda, xeymə alovlanan zaman***

***Damənin od tutub mənim şö'lə çəkib yanan zaman***

***Əmmələrim, anam, bacım qol-qola bağlanan zaman***

***Səs niyə vermədin hamı səslədi onda "Ya Hüseyn!"***

***Etmə Ruqəyyə can giley, mən niyə dadə gəlmədim***

***Qərq idi xakü-xunidə nəşim aradə gəlmədim***

***Köynəyimi apardılar, sinə qoşadə gəlmədim***

***Nazir idim o halizə nuki-cidadə gəlmədim***

***Fikr eləmə Dəməşqəcən sizdən ola cüda Hüseyn***

*Qovzanıb istədim gələm, atlar ayağı qoymadı*
*Tutdu məni çuxur yerin qanlı qucağı qoymadı*
*Qəlbidə növcavanımın suzişi-dağı qoymadı*
*Nizə, qılıc sınıqları, kəsdi qabağı qoymadı*
*Oldu bu seyri-rahidə manei-mübtəla Hüseyn*

*İndi öpüm icazə ver surəti-şəms-təl'əti*
*Sən də müqabilində qoy, surətimə o surəti*
*Çək o mübarək əllərin başıma qıl məhəbbəti*
*Pak elə zülfümün tozun, sən bil anamın hörməti*
*Ta bu yetimə doxtərin xatiri xoş ola Hüseyn*

*Yoxdu başım Ruqəyyə can, ta öpəsən cəmalimi*
*Ya ki qoyam o surətə surəti por məlalimi*
*Yoxdu bədəndə əllərim gör bu şikəstə halimi*
*Başuvə əl çəkib siləm, zülfü-çəmən misalini*
*Yoxsa edərdi xahişin, şövqilə cabeca Hüseyn*

*Yatma bu qanlı sinədə, dur, bala get, Ruqəyyə can*
*Əmmələrin gəzir çölü, sinə xəraşü bağrı qan*

***Ərsədə rəddi-payuvi dərk edib axtarır nişan***
***Gör necə səs gəlir, deyir: nazlı Ruqəyyəm hardasan?***
***Bir də deyirlər qıl kömək, bizlərə ya əxa Hüseyn!***

***Ey yarəli Hüseynimə doxtəri-nazidanə gəl***
***Başı bəlalı bülbülüm, boş qalıb aşiyanə gəl***
***Bu gecə aləmi səni saldı çölə zəmanə gəl***
***Lə'l kimi boyanmısan başdan-ayağə qanə gəl***
***Zülfüvə xuni-sorx ilə vermiş əcəb cəla Hüseyn***

***Gəldiyi yoldan ol xanım istədi ric'ət eyliyə***
***Əmmələrin gəzib tapa, ya gedə parə xeymiyə***
***Qorxdu, itirdi düz yolu, düşdü vücudi lərzəyə***
***Bir Nəcəfə tərəf baxıb bir də səvadi Kufəyə***
***Gəl yolumu itirmişəm, ol mənə rahnəma Hüseyn***

***Zülməti-şəb hərasnak, əmmələri gəzir çölü***
***Bir qız uşağı nabələd, ərsə tikanilən dolu***
***Oxdu, qılıcdı, nizədi, qanlı cənazə sağ-solu***
***Əmmələrin gəlir səsi, leyk tapammayır yolu***
***Nazir idi o qəmfəza aləmə bərməla Hüseyn***

***Əhli əza kim elədi bəs o qıza dəlaləti?***

***Getdi mənim əqidəmə, şəmsi-həyavü-möhnəti***

***Yəni anası Fatimə tapdı o mürği-möhnəti***

***Əmmələrinə əlbəəl verdi həmin əmanəti***

***Hifz edələr ki, Şamidə salim onu ala Hüseyn***

***Kərbübəlayə çün güzər eylədi Şahi-la fəta***

***Baxdı o sərzəminə bir diqqətilən edib nəva***

***Ərz elədi səhabələr, canuvə canımız fəda***

***Sən niyə ağladın belə, illətini buyur ağa***

***Ey pedəri-müəzzəmi-gövhəri-ətqiya Hüseyn***

***Verdi cavab o kəslərə Həzrət Şahi-övliya***

***Bu yerin adı Kərbəla, bir adı ərzi-Neynəva***

***Burda mənim Hüseynimin xeymələri olar bina***

***Qətlə yetər köməkləri, qardaşı, oğlu bərməla***

***Xəncəri-Şimrilən olur zibhi-minəl-qəfa Hüseyn***

***Bəs ki, mənə xəbər verib bu sözü Sadiqi-Xəbir***

***Xeymələrinə od vurub yandırı(r) ləşgəri-şərir***

***Zülm ilə Əhli-Beytimi eyləyir əşqiya əsir***
***Qarət olur xiyamidən məsnədü-cameyi-hərir***
***Girdü-qübari-dəştidən puşiş edər qəba Hüseyn***

***Yəhyəvinin ki, no cavan oğlu gedib cəhanidən***
***Əhli-nəcibi-Ərdəbil təziyə tutdu mərdü-zən***
***Nokəri-pirə ehtiram oldu ziyadə həddidən***
***Həqqin o hörmətin əda eyliyə bilmərəm ki, mən***
***Gərdəni-Yəhyəvidən et həqlərini əda Hüseyn***



### *Mir Möhsün Nəvvab*

***Sənə Nəvvab olub şamü səhər növhəsəra,***
***Əbri-nisan kimi hər ləhzə tökər əşki-əza,***
***Et şəfaət kərəm ilə sən ona ruzi-cəza,***
***Ey şəhi-Kərbübəla, sibti-Rəsulüs-səqəleyn,***
***Seyyidi-əhli-cinan, şöhreyi-əhli-hərəmeyn...***

***

***Düşdü atdan yerə çün, Şahi-Şəhidan yaralı,***

***Bədəni-paki anun nizəvü-peykan yaralı.***

***Guiya, düşdü yerə ərşi-Xudavəndi-mübin,***

***Çərxi-çaromda vurub başına Cibrili-Əmin,***

***Neçə sərkərdə şəhid etmək üçün, etdi kəmin,***

***Ta ki, zibh eyləyələr başını daldan yaralı.***

***Yeddi zərbətlə kəsib başını Şimr ilə Sənan,***

***Saldılar şurü nüşur aləmi-imkanə əyan,***

***Od tutub yandı alışdı o qəmə cümlə cahan,***

***Fərqi-ənvarı edib nizədə cövlan yaralı.***

***Tirə-tar oldu fələk, yellər əsib, gün qaralıb,***

***Zəlzələ etdi cahan, vəlvələ dünyayə salıb,***

***Mehrü mah, şişdəri-heyrətdə o dəm mat qalıb,***

***Xakə, xun içrə düşəndə şəhi-dövran yaralı.***

***Qətligah içrə o dəm Zeynəbi-biçarə gəzər,***

***Qətligahın tozunu, toprağını başə səpər,***

***Axtarar qardaşının nə'şi şərifindən əsər,***
***Bir çuxur yerdə tapıb qanına qəltan yaralı.***

***Gülşəni-din pozulub gülləri tarac olub,***
***Bülbülün nalə səsi, şur gülüstanə salıb,***
***Gül kimi Ali-Nəbi cümləsi pəjmürdə qalıb,***
***Cövrü-xar ilə düşüb sünbüli-reyhan yaralı...***

***Ənbiya yasə batıb, tutdu əzasını Xəlil,***
***Hacər ağlar, bu qəmə qarə geyib İsmail,***
***Şahi-biyarə olub, mərsiyəxan, Cəbrail,***
***Növhə eylər hamısı, vay yaralı, can yaralı.***

***Ah o dəmdən ki, şəqi Kufənin əhli o zaman,***
***Etdilər şahı-şəhid itrətini Şamə rəvan,***
***Vay o dəmnən ki, qədəm həşrə qoya şahi-cahan,***
***Başı əldə, cəsədi tiğ ilə peykan yaralı...***

***Kərbəla dəşti dönüb səhni-gülüstanə o gün,***
***Şühədalar bədəni laleyi-nə'manə o gün,***

***Ərğəvan misli boyanmış hamı al qanə o gün,***
***Qumlar üstündə qalib cümləsi üryan yaralı.***

***Olub bu vəqiədən qəddi kaman Nəvvabın,***
***Gözünə tirəvü-tar oldu cahan Nəvvabın,***
***Xaməsi yandı alışdı o zaman Nəvvabın,***
***Od tutub yandı bu ğəmdən dili-suzan yaralı.***

***

## *Cənabi Nəvvabın tövbənaməsi*

***Həmdi-bihədd Sənə ey dadgəri-yövmi-cəza,***
***Sane'ü ləmyəzəlü həyyu qədimü əda.***
***Ki, nə ne'mətlər edibsən biz nadanə əta,***
***Leyk küfran edib kim, oluruq hərzə dəra.***
***Hər zaman tey edərdik bədliklə rahi-xəta,***
***Rahnüma eyləgilən lütfünü, ey bari-Xuda,***
***Dəşti-heyrətdə qalıb söylərəm əz ruyi-səfa.***
***Hər zaman sidqilə key dadgəri-hər dü səra,***

***Tövbə, ya Rəbb, bexəta rahına getdiklərimə,***
***Bilib etdiklərimə, bilməyib etdiklərimə.***

***Nitq verdin ki, edəm zikr sifatımı əyan,***
***Əql qədrincə həman qüdrəti-zatını bəyan.***
***Yol tutam şə'ri-Nəbini, olam ol rahə rəvan,***
***Şəm'i ol rahə edəm həbbi-Əliyi-İmran.***
***On bir oğlu ilə edəm sabit dinü-iman,***

***Leyk biçarəyəm əz nəfsü bədü bünyan.***

***Sən mədəd qıl bu cihad içrə mənə, ey Sübhan,***

***Qoyma dəstgir qalam vadiyi-heyrətdə aman.***

***Tövbə, ya Rəbb, bexəta rahına getdiklərimə,***

***Bilib etdiklərimə, bilməyib etdiklərimə.***

***Ey diriğa ki, əbəs ömrü əziz oldu fəna,***

***Keçdi gün bədlik ilə dərdü qəm, möhnətara,***

***Heyf, səd heyf, cavanlıq ki, olur badi-hava,***

***Qocalıq vay əgər çəngi-giribanə vura,***

***Bu hal ilə gələ gör kim səfər üqbayə ola,***

***Dəst-xali, yük ağır, gözdən uzaq dari-şəfa.***

***Zərrəcən yox bir əməl ta tuta el ruzi-cəza,***

***Sən yetiş dadıma, ey padişəhi-Kərbübəla.***

***Tövbə, ya Rəbb, bexəta rahına getdiklərimə,***

***Bilib etdiklərimə, bilməyib etdiklərimə.***

***Vay o gündən ki, yetə qərqərəyə can ze məhən,***
***Qövmü qardaş yığılıb bağlayalar çeşmü dəhən.***
***Qoyalar taxta kimi üstənə quru bədən,***
***Verələr qüslümü örtə bədən, zari kəfən.***
***Qoya tabuta məni, şivən edə kudəkü zən,***
***Ola bir tirə olan cay məni-zarə vətən.***
***Nə bir imdad edən ola, nə də bir dada yetən,***
***Sən yetiş dadıma ey davəri zilcudu mənən.***

***Tövbə, ya Rəbb, bexəta rahına getdiklərimə,***
***Bilib etdiklərimə, bilməyib etdiklərimə.***

***Bu beter hal ilə ol dəmdə behökmi-Yəzdan,***
***Nagehan zahir ola sövlət ilə iki cavan.***
***Deyələr key əziz ömrü verən badə, oyan!***
***Söylə sən Rəbbini, Peyğəmbərini eylə bəyan.***
***Neylədin dünyada, söylə hamısın, eylə bəyan.***
***Oların heybətinə lal ola dil, titrəşə can.***
***Bir belə vəxtidə ey qadiri-qəyyumi-cahan,***
***Yetir imdadıma mövlalarımı ahü aman.***

***Tövbə, ya Rəbb, bexəta rahına getdiklərimə,***
***Bilib etdiklərimə, bilməyib etdiklərimə.***

***Gözü yolda, dili lal ba dili-məcruh, fikar,***
***Ol xətərnak məkan içrə besədd zarivü zar,***
***Yolunu gözlərəm, ey dadrəsi-ruzşümar,***
***Sən özün dadıma yet, qəbridə, ey cəddi-kübar,***
***Çünki məddahi-Hüseynü Həsənəm leylü nəhar,***
***Möhsünəm, dərdkəşi-hübbi-Əliyyi-Kərrar,***
***Çakərəm, dərgəhüvə əbd dər həştü çəhar,***
***Əfv qıl cürmümü, ey Həyyü Kərimi-Qəffar.***

***Tövbə, ya Rəbb, bexəta rahına getdiklərimə,***
***Bilib etdiklərimə, bilməyib etdiklərimə.***



## *Molla Pənah Vaqif*

***Ey xoş onlar kim, Məhəmməd Mustafanı sevdilər,***
***Oldular aşiq, Əliyyül-Mürtəzanı sevdilər,***
***Sidqü-ixlas ilə pənc Ali-Əbanı sevdilər,***
***Çahardəh məsumtək müşkülgüşanı sevdilər,***
***Dəxi, onlardan gözəl yaxşı cəmaət görmədim.***

***

***Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!***
***Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!***

***Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,***
***Hökmü adil padişahi-qadirü qəhharə bax!***

***Sübh söndü, şəb ki, xəlqə qiblə idi bir çıraq,***
***Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!***

***Taci-zərdən ta ki, ayrıldı dimaği-pürqürur,***
***Payimal oldu təpiklərdə səri-sərdarə bax!***

***Mən fəqirə əmr qılmışdı siyasət etməyə,***
***Saxlayan məzlumu zalimdən o dəm Qəffarə bax!***

***Qurtaran əndişən ol ahəngəri-biçarəni,***
***Şah üçün ol midbəri təbdil olan mismarə bax!***

***İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,***
***Ta həyatın var ikən nə şahə, nə xunxarə bax!***

***Baş götür bu əhli-dünyadan ayaq tutduqca qaç,***
***Nə qıza, nə oğula, nə dustə, nə də yarə bax!***

***Vaqifa, göz yum cahanın baxma xubü ziştinə,***
***Üz çevir Ali-Əbayə, Əhmədi-Muxtarə bax!***

***

***Bir gözəl qamətli yari-laləréngi sevmişəm,***

***Yari-istiğnası şirin, şuxü şəngi sevmişəm,***

***Qaşı yay, kirpikləri türfə xədəngi sevmişəm,***

***Ox atan, qanlar tökən türkanə cəngi sevmişəm,***

***Halə rəhmi gəlməyən bir bağrısəngi sevmişəm.***

***Naz ilə sərxoş gedəndə ol gözəllər sərvəri,***

***İki yandan mövc vurur zərrin kəlağay ucləri,***

***Bir mələkdir, sanasan, uçmağa açmış şəhpəri,***

***Rövzei-kuyi Mədinə, qaşı Kə'bə minbəri,***

***Arizi üzrə həcər tərhində səngi sevmişəm.***

***Bad əsib, üzdən niqabı açılanda gahi-gah,***

***Şöləsindən gün olur göydə xəcəl, şərməndə mah,***

***Gərdəni, qəddi tamam göyçək, rüxü süni-ilah,***

***Sərbəsər əndamı ağ, qaş-gözü, saçı siyah,***

***Al hənadan laləreng gülgunə çəngi sevmişəm.***

***Hər zaman ki, ol sənəm gedir qabağımdan mənim,***

***Başadək bir od düşər, yanır ayağımdan mənim,***

*Göy dəyir bir-birinə ahi-fərağımdan mənim,*
*Kəsmə mina qülqülün, saqi, qulağımdan mənim,*
*Xəndei-cananə bənzər mən bu həngi sevmişəm.*

*Vaqifəm, hərdəm dilimdə əzbərim dost adıdır,*
*Qəddi xoş, rəftarı könlüm bağının şümşadıdır,*
*Gözlərindən əl'əman kim, canımın cəlladıdır,*
*Mən sevən dilbər Məhəmmədin gözəl övladıdır,*
*Sanmayın, Sənan kimi azıb firəngi sevmişəm.*




***Şair Məmmədhüseyn***

***Canişini mustafasan,***
***Ya Əli, fəryadi rəs.***
***Sadiqi şəhri vəfasan,***
***Ya Əli, fəryadi rəs.***

***

***(Ü)suliddin beşdir islama vacib,***

***Əvvəli tövhiddir Rəbbim xəbərdar.***

***Təvəlla-təbərra zülmən mil ibad,***

***Bərhəqqi adildi o pərvərdigar.***

***Üçüncü nübüvvət yəni peyğəmbər,***

***Dördüncü imamət bərhəqdi onlar.***

***Ruzi məhşərdə şəfa qılanlar,***

***Mömünə behiştdə yer verər onlar.***

***Təvəlla, təbarra dostunu tanı,***

***Haqq bil peyğəmbəri mövlanı tanı.***

***Yüz on dörd surədi haqqın Quranı,***

***Oxuyar, anlayar alim olanlar.***

***Haqq özü buyurub söyləyir kəlam,***

***Şəfa dilər ondan cümleyi-aləm.***

***Vacibdir İslama məsail tamam,***

***Utanar İmamdan münkür olanlar.***

***Cəhalət qalmasın, qılın namazı,***

***Axirətdə yetər onun əvəzi.***

***Ölmək-dirilmək mizan tərəzi,***

***Gərəkdi bilsinlər mömün olanlar.***

***Altı şey vacibdir, əvvəl təharət,***

***Xalis su ilə alın, olmaz şiləkət.***

***Eyni nəcabəti püşdünə öyrət,***

***Utanmaz fitnəyə qüsul verənlər.***

***Vaxtı hədər keçirməyin, vədəni,***

***Vaxtı düz bilin, gözləyin Kəbəni.***

***Ca qəsbi, cama qəsbi yetim olanlar,***

***Qoy onlar da bilsinlər namaz qılsınlar.***

***Niyyət, qiyam, tək bir ehram,***

***Əlhəm, qiraət, qülhüvallah əhəd.***

***Rükudu, səcdədi, təşəhhüd, salam,***

***Bil onlardı İslama vacib olanlar.***

*Müctəhid rəyi ilə təğlidin bəhsi,*
*On yeddi rükətdi, beş vaxt əsası.*
*Altı min altı yüz atmış ayəsi,*
*Doxsan min kəlmədə oxunar aşkar.*

*Oruc, namaz, somu, salat biləsiz,*
*Gəlsə müşdəmeylik Həccə gedəsiz.*
*Haqq yanında olmayacaq əvəzsiz,*
*Şərri şeytandan çox cəhətimiz var.*

*Aləmi-ərşi Rəbbim qeyiblər bilər,*
*Adildir, Kərimdir şəfayət qılar.*
*Qorxmayın məhşərdə köməyə gələr,*
*Məkanı qəlbdədi, mömün olanlar.*

*Pəs yumşaq məna verir sübhana,*
*Müvəkkilim sadiqdir zəmani əsmana.*
*Sadiqdir, doğruluğu verir bəyana,*
*Bunlardır Rəbbimə sait olanlar.*

***Nə ərəsdi, nə mürəkkəb, nə cövhər,***

***Heyyas üstümüzdə durub rəhbər.***

***La şərikdir, la məkanın söyləyər,***

***Əlli üç məsail eylədim təyyar.***

***Məmmədhüseyn ümid Xudanı bilir,***

***Din Məhəmməd, kəlam "Quranı" bilir.***

***Nəsil-nəcabəti Omamı bilir,***

***Cəfər məzhəbinə etiqat bağlar.***

***

***Haqq-Təalan aslanısan,***

***Doğru billəm, ya Əli!***

***Kimsə bilməz sənin sirrin,***

***Sirri-cansan, ya Əli!***

***Qəriblərin pənahısan,***

***Mehribansan, ya Əli!***

***Abi-Kövsər saqisisən,***

***Həm səxasan, ya Əli!***

***Getdin ol Merac üstünə,***

***Haqqa salam eylədin.***

***Sən xaliqsən, mən məxluqam,***

***Ol Xudaya söylədin.***

***Cəbrayıla ustad oldun,***

***Tərifini eylədin.***

***Ustadlara rəhmət gəldi,***

***Şiri-Haqsan, ya Əli!***

***Məmmədhüseyn sənə qurban,***

***Ya ərənlər sərvəri.***

***Fəth etdin Kuhi puluçu,***

***Neçə-neçə tilsimləri.***

***Öldürdün Salsaltək şahı,***

***Aldın o, Şəhrizəri.***

***Kərəm eylə məhşər günü,***

***Ağam sənsən, ya Əli!***



## *Hacı Zeynalabdin Şirvani*

***Düzdür susuram mən bu divar tək***
***Qəlbimdə əsir fırtına, tufan***
***Ey tənə vuran, mülk sənin olsun***
***Neynər evi dərviş olan insan***

***

***Gahi bu çərxi-fələk aləmə tufan gətirər,***
***Gahi iyman evinə seyli-firavan gətirər.***

***Gah basar bağrına bülbül yerinə zağü-zəğən,***
***Gah şikar eyləməyə alıcı tərlan gətirər.***

***Gah atar kin ilə İbrahimi Nəmrud oduna,***
***Gah Mina dağına İsmaili qurban gətirər.***

***Gah Yaqubi edər sakini Beyt ül-Əhzan,***
***Gah satar Yusifini, möhnəti-zindan gətirər.***

***Gahi Fironə verər nüxvətü xəllaqiyyət,***
***Gahi qərq etməyunə Musiyi-İmran gətirər.***

***Gahi nəleyni-Məhəmmədlə verər ərşə bəzək,***
***Gah onun məsnədinə bir neçə heyvan gətirər.***

***Gah verər Şiri-Xuda dəstinə Xeybər fəthin,***
***Gah qolu bağlı onu məscidə nalan gətirər.***

*Gah salıb şuri-müxaliflə Hicax içrə nəva,*
*Gah İraq içrə Hüseyn qətlinə fərman gətirər.*

*Ali-Süfyanə verər izzət üçün təxti-təla,*
*Ali-Peyğəmbər üçün naqeyi-üryan gətirər.*

*İzzətü zillətinə baxma onun, ey Təmkin,*
*Gahi dünyaya xəzan, gah gülüstan gətirər.*

***

***Söz soruşan yoxsa, danışma heç sən,***

***Ürək sirlərini gizlə yad kəsdən.***

***İki qulağın var, dilinsə birdir,***

***İki dəfə dinlə, bir dəfə dillən.***

# *Müasir ədəbiyyatımızda Əhli-Beyt*



# *Cəsur Nari*

***Almamış yol hələ küllən nə var əşya yoluna***
***Mən qədəm qoymuş idim sidq ilə Mövla yoluna***

***

***Dön gəl gözümün nuru bu gözlər səni gözlər.***

***Yollarda qoyub getdiyin izlər səni gözlər.***

***Sən getmisən, əfsus, qalan bircə qəmindir,***

***Sənsiz bu qəmi könlüm əzizlər, səni gözlər.***

***“Sevdim” sözünü kimsəyə sənsiz deyə bilməz,***

***Qəlbim bu təmiz sevgini gizlər, səni gözlər.***

***Gözlər yolunu həsrət ilə aşiq olanlar,***

***Tək biz deyilik, biz kimi yüzlər səni gözlər.***

***Gəl, çat bizim imdadımıza, ey son ümidmiz,***

***Ey kani-səfa, dərdli mərizlər səni gözlər.***

***Səndən utanıb gizlənəcək əyri gəzənlər,***

***Amma nə qədər var isə düzlər, səni gözlər.***

***Məsum mələyim, gəl yenə sən Narini dindir,***

***Şirin-məzəli, sevgili sözlər səni gözlər.***

***

***Səba bizdən Muhəmməd Mustəfayə bir səlam eylə***
***Ədəb göstər səri - kuyin öpüb min ehtiram eylə***

***Dolansan başinə bir yol könül ayrılma dilbərdən***
***Mücərrəd seyrə salik ol dolanmaqda dəvam eylə***

***Mizacım acıdır ya Rəbb iradənlə verib təğyir***
***Ləbi - şirini vəsfində məni şirinkəlam eylə***

***Təvafi - Kə`beyi - kuyin fəqihi - bitəharətçün***
***Xudaya izzətin həqqi qəsəm verrəm həram eylə***

***Məni məst eylədin saldın yola meyxanədən axir***
***Xərabət küncünə saqi gəlib təklifi - cam eylə***

***Qiyam olmazsa ey Qaim tapardım səcdədən təskin***
***Və lakin hökmi - Həqdir bu, ki ey bəndə qiyam eylə***

***Şəfaət istəsən Nari qiyamətdə O Mövladən***
***Səlamiylə söz aç Ondan səlamiylə təmam eylə***



**Əli Azər Bandoj**

**Düşmən yuxusun ərşə çəkən tiri - Xuda idi,**
**Şeytanları mə'yus eliyən sirri - Xuda idi,**
**İsraili lərzə gətirən şiri - Xuda idi.**
**Şagirdi - dəri - Fatehi - xeybərdi Süleymani.**

**Sərvərdi bütün şiəyə sərvərdi Süleymani,**
**Əsgərdi bizim Rəhbərə əsgərdi Süleymani.**

***

***Gözüm, gözün ibadəti Hüseynə ağlamaqdadır.***

***Ömür, həyat ləzzəti Hüseynə ağlamaqdadır.***

***Məhərrəm oldu ey könül, bürün siyahi - macərə,***

***Ürək gərəkdi yas tuta o nuri - çeşmi - Heydərə,***

***Ey əhli - qiblə, ehtiramı, Həzrəti - Peyəmbərə,***

***Kimin ki, vardır, illəti Hüseynə ağlamaqdadır.***

***Bu mahi - matəm içrə ağlamaq biixtiyardır,***

***Kim ağlıyar bu bəzmdə o şəxs bəxtiyardır,***

***Bu göz yaşı gədayə həm də şahə iftixardır,***

***Gədavü şahın izzəti Hüseynə ağlamaqdadır.***

***Dilində zikri - Ya Hüseyn atıldı eşq rahinə,***

***Könül quşum qanad çalıb yetişdi kuyi - mahinə,***

***Gözün yaşın rəvan edib Hüseyn xeyməgahinə,***

***Vüsali - eşq həsrəti Hüseynə ağlamaqdadır.***

***Diyari - Neynəva sevən könüllərin diyarıdır,***

***Məzari - Şahi - Kərbəla məhəbbətin məzarıdır,***

***Bəhari - Aşura yanan ürəklərin bəharıdır,***
***Gülabi - eşqü şərbəti Hüseynə ağlamaqdadır.***

***Bu can mülkünə bir od düşübdü yandırır məni,***
***Xəzan edibdi Şamdə fələk güli - Mədinəni,***
***Əsir edib Yəzidilər Rüqəyyəni, Səkinəni,***
***Mələklər Ali - Həzrəti - Hüseynə ağlamaqdadır.***

***Hüseyn qəmindən odlanan ürəklərə səlam ola,***
***Gözün yaşıyla islanan ətəklərə səlam ola,***
***Əzalı sinəsin döyən biləklərə səlam ola,***
***Könüllərin təravəti Hüseynə ağlamaqdadır.***

***Bu Bandojun ki, eşqi var Hüseynə binihayidir,***
***Əzəldən iqtida edib Hüseynə iqtidayidir,***
***Soruşmayın haralıdır, əzalı Kərbəlayidir,***
***Məsavü sübh sən'əti Hüseynə ağlamaqdadır.***

***

***Məhəbbət olmayan yerdə, əzizim, basəfa olmaz,***
***Məhəbbət aləmində ey könül, cəngü-cida olmaz.***

***Əgər bir kimsə ki, aşiq deyil, ondan həzər qıl ki,***
***Məhəbbət əhlinə biganələrdən aşina olmaz.***

***Bəladən kim qaçarsa, sən də ondan qaç uzaqlaş ki,***
***Məhəbbət rahidir bu, biqəzavü-bibəla olmaz.***

***Təmənna eyləsən bir busə üçün, yar naz etsə,***
***Könül, düşmə həvəsdən ki, gözəllər biəda olmaz.***

***Nigarın səndən isbati - məhəbbətdə can istərsə,***
***Tərəddüd eyləmə, anın vüsalı bifəda olmaz.***

***Səni Həllac Mənsurtək çəkərsə darə zalimlər,***
***Yenə əl çəkmə yarından ki, aşiq bivəfa olmaz.***

***Əgər həşti - behiştə daxil olmaq istəsən ey dil,***
***Məhəldir, almasan izni - Əliyyəl - Mürtəza, olmaz***

***Sənə kim sirrini versə, onu faş etmə, gizlət ki,***
***Səni öz sirrinə şah eyləyib, şahdan gəda olmaz.***

***Xudaya, qıl kərəm keç Bandojun curmü-xətasından,***
***Nə bir qul bixətadır, nə kərəmsiz bir ağa olmaz.***



***Arif Buvozna***

***Mən sənin eşqinə adəmliyi tərk eyləmişəm***
***Nola bir kimsə məni qoymasa insan yerinə?!...***

***

***Hüseynim, ey Fərat, söylə, bu səhradan keçib ya yox?***
***Suyundan təşnə can vermiş Əli-Əkbər içib ya yox?***

***Hayandır Kərbəla, qoyma məni gəl nabələd böylə,***
***Nişan ver yar gedən səmti məni-zarə dəva eylə,***
***Gözüm nuri Hüseynimdən nigaranəm, xəbər söylə,***
***Bilim yetmiş iki qurban xəlayiqdən seçib ya yox?***

***Qurubmu Zeynəbü Leyla Əli-Əkbər qəmində yas,***
***Ədalətlə danış bir-bir imamə göstərib ixlas,***
***Sənə bir məşk su üçün gələndə Həzrəti Abbas***
***Qılınc ilə yarıb səflər qoşun-ləşkər biçib ya yox?***

***Xəbər ver Hürri-meydangərd olubmu cismdən azad,***
***Cırıb üz qətli-Qasimçün edibmi novərus fəryad,***
***Nələr baş verdi səhrada, de bir, ey sahili bərbad,***
***Əli-Əsğər qitaliçün yayından ox uçub ya yox?***

***Qəribəm, ey Fərat, rəhm et, sükutundan, bu gun əl çək,***
***Bəyan et Kərbəla halin, bilim ta ki nədir gerçək,***

***Əlində Zülfugar tutmuş Hüseynim Şahi-Mərdan tək***
***Gözündən ərseyi-cəngə qığılcımlar saçıb ya yox?***

***Tutubmu Şama yol nalan əsirlər ahü zar içrə?***
***Qalıbmı xaki-qürbətdə Səkinə dar məzar içrə?***
***Gedibmi Şahimin başi cidadə bu qətar içrə?***
***Gözü giryan əsirlərçün Xuda bir yol açıb ya yox?***

***Mənə hər cür gözəllikdən gözəldir verdiyin təsvir,***
***Bu halı bab-bab söylə daha gəl eyləmə təxir,***
***Danış Şahi-Şəhidanın qəmin, sonra bax öyrən bir***
***Qəhərdən Arifi-şeyda bu dünyadan köçüb ya yox?***

***

*Güzgüyə, ey dil, nə surət düşsə rüsva görsənir,*

*Kim görünmək eşqinə görsənsə, bica görsənir.*

*Sürətin ifratı fəndin şöhrətin qoymuş geri,*

*Həşr bərpa olmamışdan həşr bərpa görsənir.*

*Ey ədalətdən dəmadəm dəm vuran şeytanpərəst,*

*Saxta insanlıq rəvan nitqində əla görsənir.*

*Damcıya bir damcı gözlə baxmağın təsiri yox,*

*Kim ona dərya gözilə baxsa dərya görsənir.*

*Eşqdə tutmaqdan ötrü nə ətək var, nə yaxa,*

*Hansı yandan baxsalar Məcnuna Leyla görsənir.*

*Mən bu dünyanı nə vaxtdır salmışam gözdən, könül,*

*Harda mən görsənmirəmsə, orda dünya görsənir.*

*Arif, imandan keçib mən eşqə məna vermişəm,*

*Eşq zahirdə Əli, batində Zəhra görsənir.*



## *Hacı Mail*

***Maila sən kimi çoxlar həvəs eylər qəzələ,***
***Hərkəsin karı deyilki qəzəl icad eləsin.***

***

***Əhli-ürfanə könül, bir ismi-pünhandır Əli.***

***Kimsə bilməz ki, necə bir əhli-ürfandır Əli.***

***Kainatın hər işin tapşırmış İzəd Heydərə,***

***İxtiyardari-cəmii-çərxi-dövrandır Əli.***

***Mən ona "Əjdər" deyim, "Səftər" deyim, "Kərrar" ya,***

***Hər nə desəm var yeri, çün ali-İmrandır Əli.***

***Bir "Yədullah" ismi bəsdir arifü-dana üçün,***

***Bu adı bir kimsə almıb, dəsti-Yəzdandır Əli.***

***Hatəmi-Tai səxavətlən olub məşhur gər,***

***Leyk dünyadə səxa əhlinə sultandır Əli.***

***Köçdü Hatəm, qalmadı zərrə səxasından əsər,***

***Öz səxasiylə qalan hala vü əlandır Əli.***

***Yox peyəmbərdən sora bir kəs Əliyə tay ola,***

***Batinin gör, zahirən hərçənd insandır Əli.***

***O, İmami-mömininindir, sərvəri-İslamdır,***
***Gərçi İslam bir cismsə, ol cismə bir candır Əli.***

***Olmasaydı Zülfiqar, əldən gedərdi dinimiz,***
***"Lafəta illa Əli"yə bunca bürhandır Əli.***

***Bir qəzavat olmayıb keçsin Əlisiz şe'ridə,***
***Düşmənani-müslimə bir şiri-meydandır Əli.***

***Bir qılınc Xəndəkdə vurdu ol Əmir Əb-Davidə,***
***İndi də "əhsən" mələklərdən nümayandır Əli.***

***Büxr ilə mehrabdə düşmən onu qətl eylədi,***
***Dini-İslamə özü, övladı qurbandır Əli.***

***Onları qətl eyləyənlər özləri bəs noldular?***
***Yox olardan bir əsər, əmma nümayandır Əli.***

***Qədr ilə ziynət verib el, qəbrinə övladının,***
***Həm Nəcəfdə qəbri nuri-mahı təbandır Əli.***

*Pərdə çəkmək haqq olan bir kimsəyə mümkün deyil,*
*Həqqdir kari-Əli, həm həqqə şayandır Əli.*

*Həm Əli bir alimi-bimislidir, aləm bilir,*
*Natiqi-"Quran" olub, kəşşafi-"Quran"dır Əli.*

*Sayəyi-"Quran" kimi "Nəhcül-Bəlağə" ad alıb,*
*Bu kitab ilə odur kim, fövqül-insandır Əli.*

*Həm Əli şairliyi inkar olunmaz bəhsdir,*
*Aç, oxu "Divan"ını, bir gör, nə divandır Əli.*

*Tirə təbimlə necə mədhi-Əlidən bəhs açım?*
*Cümlə şairlər dilində bunca dastandır Əli.*

*Bəlkə bir beytim ola, ol şahə xoş gəlsin dedim,*
*Əfv edə təqsirimi, çün şahi-rizvandır Əli.*

*Aşiqi-nəsli Əliyəm, həm bunu Tanrım bilir,*
*Ta nə qədri mənzilim mülki-Süleymandır, Əli.*

***Bu məhəbbətdə əgər üqbayə gəlsəm, mütləqa,***
***İçdiyim-Kövsər, ənisim hurü qılmandır, Əli.***

***Cənnəti-hüsnün mənə dünya və üqbadə yetər,***
***Olmasa eşqin, iki dünya da niyrandır, Əli.***

***Saymaq ilə bəllidir məndən qutarmaz məsiyət,***
***Əlli ildən keçdi ömr, könlümsə nadandır Əli.***

***Qoymadı dünya işi hərgüz tədarük etməgə,***
***Gördüyü işdən könül hər gün peşimandır, Əli.***

***Yoxdu şayəstə əməl, Mail baxa, ümmid edə,***
***Sənsən ancaq bir ümidi, bir də Sübhandır, Əli.***

***

***Ey mənim hər dərdimə aləmdə loğman Nardaran.***
***Yox səni tərif üçün təbimdə imkan Nardaran.***

***Hansı səmtə üz tutub getsəm səfasızdır vəli,***
***Ey mənim könlüm üçün ən ali ünvan Nardaran.***

***Mən səni kəndim kimi tərif edərsəm nakəsəm,***
***Tərifin onsuzda olmuşdur numayan Nardaran.***

***Şeyx ağa, Şeyx Əhmədin, həm Şeyx Rəsulun kəndisən,***
***Səndə olmuş Şeyx Əli tək əhli-ürfan Nardaran.***

***Ağa Möhsün, ya Məzahir birdə gəlməz aləmə,***
***Bəs hanı molla Hac(ı)əli tək bir insan Nardaran.***

***Hatəmi Sani kimi ad qoydu bu yerdə Qasım.***
***Tez aldı bizdən onu çərxi-dövran Nardaran.***

***Əbdüləli səndə almışdır axundluq adını,***
***Adını yazmağa həm aciz bir insan Nardaran.***

***Tazə ad salmış cavandır Hafizi hifz eyləsən.***
***Can qoyub almış səninçün böylə ad-san Nardaran.***

***Tanrı etmiş etibar səndə İmam namusunu,***
***Sən necə yersən onu göstərdi Sübhan Nardaran.***

***Söz sözü çəkdikcə yazsam xanə tutmaz tərifün.***
***Bircə arzum görməyim bu yeri viran Nardaran.***

***Madəri ölmüş uşaq tək Maili ağuşa al.***
***Qoyma ta sızlayıb olsun pərişan Nardaran***



## *Vüqar Biləcəri*

***Şərəfi-zümreyi Adəm, Ağamız Həzrət Əlidi!***
***Səbəbi xilqəti aləm, ağamız Həzrət Əlidi!***

***

***Naz edər ətri-behiştə telin ətriylə küləklər,***

***Sənə təzim eləyərlər rükü halında fələklər.***

***Qədəmin dəydiyi yerdən öpər ən ali mələklər,***

***Sənə ərbabi-vəfanın böyük ustadı deyərlər,***

***Sənə məzlumların, acizlərin imdadı deyərlər.***

***Beşiyi Kəbeyi-əqdəs, özü bir zati-müqəddəs,***

***Nə çox isbati-müşəxxəs o əzizlərçün əziz kəs.***

***Ona dünya evi məhbəs, səsi haqqa çağıran səs,***

***Desələr adı nədir bəs, Əlidir adı deyərlər,***

***Ona qeyrətli Rəsulun kişi damadı deyərlər.***

***Sübh edərsən günü heyran, gecələr mahi-muniri,***

***Gözünün sədqəsi ahu, saçının müşk əsiri.***

***Sənə şəhzadələrin sərvəri, sultanı, əmiri,***

***Mənə aşiqlərin ən xatiri-naşadi deyərlər,***

***Desələr Məcnuna tay, mən evi bərbadı, deyərlər.***

***Nə cavanlıq yaşadım mən, elə gənclikdə qocaldım,***
***Səni gündən xəbər aldım, səni aydan xəbər aldım.***
***Sinəm üstən neçə qəm dağı qopardıb yerə saldım,***
***Mənə də indiki əsrin yeni Fərhadı deyərlər,***
***Buna nakam qalan eşqin acı fəryadı deyərlər.***

***

***Anamız Həzrəti Zəhradan əmanətdir hicab,***

***İki dünyada hicab əhlinə zinətdir hicab.***

***Hicab hər möminənin ismətidir-iffətidir,***

***Adıdır, namusudur, mənliyidir, qeyrətidir,***

***İzzidir, şənidir, ülviyyətidir, şövkətidir,***

***Elə fərz eylə xanım güldü, təravətdir hicab...***

***Saxlayın məndən əmanət dedi Zəhra hicabı,***

***Kərbəlada qorudu Zeynəbi-Kübra hicabı,***

***İndi isə qalıb əllərdə Rüqəyya hicabı,***

***Ya şərafətsiz ömürdür, ya şəhadətdir hicab...***

***Zalima, Allaha bax, Tanrıya bax, irşad ol,***

***Əmri-Xəllaqə itaətdə bulun, nun-qad ol,***

***Ey deyən kəs qızına, taxma hicab, azad ol,***

***Sən biqeyrət nə bilirsən ki, nə qeyrətdir hicab?!...***

***İstəsən Tanrı yanında olasan şəni əziz,***

***Pərdeyi-isməti cəhd eyləginən saxla təmiz,***

*Ta bu əxlaq ilə ol Həzrəti Zəhraya kəniz,*
*Ondan al dərsi-həya, gör nə şərafətdir hicab...*

*Keçdi Zeynəb o zaman yeddi igid qardaşdan,*
*Gəldi fəryadi-nəva səsləri dağdan-daşdan,*
*Yenə də açmadı, amma ki hicabın başdan,*
*Ey bacım, bax yola gəl, rahi-hidayətdir hicab...*

*Olma yırtılmış həya pərdəsi, şeytan nökəri,*
*Keç həya məktəbin, ol bəxtəvərin-bəxtəvəri,*
*Çün, hicab əhlinin üstündədir Həqqin nəzəri,*
*Həm bu dünyada, həm üqbadə şərafətdir hicab.*

*Anamız Həzrəti Zəhradan əmanətdir hicab,*
*İki dünyada hicab əhlinə zinətdir hicab...*



## *Hacı Ələmdar Mahir*

***Hüseyn türbətinə əl vurub təyəmmüm edən,***
***Rəva deyil su tapıb, sonra dəstəmaz eləsə…***

***

*Saqi, insaf eləsən nitqi-gühərbar açaram,*

*Edərəm bəzi müəmmaları izhar, açaram,*

*Sinəmin sandığını, olsa xiridar, açaram,*

*Şe'r ilə mərtəbeyi-Heydəri-Kərrar açaram,*

*Mən onun tərifinə, bir dili-şəhvar açaram.*

*Gəldi təbim yenə ilhahə gətir mey, saqi,*

*Qərəzim var mey edim nuş, peyapey, saqi,*

*Varmı səndə məni məst etməyə bir şey, saqi?*

*Eşqi camın mənə lütf etsən əgər, ey saqi,*

*Mürtəzadən sənə cuş etməli göftar açaram.*

*Həsrəti-meylə keçib, ömrüm olub tən, saqi,*

*Tut əlimdən yetişim mətləbimə mən, saqi,*

*O qədər qəmliləri eyləmisən şən, saqi,*

*Mən deyən tək məni məst eyləyə bilsən, saqi,*

*Vəsfi-mövladə açıb dil, sənə əsrar açaram.*

*Açmışam mən, elə bir əhli-vəfa söhbətini,*

*Adəmə vacib olubdur ki, tuta hörmətini,*

***Verə bilməz, onun hər şair olan qiymətini,***
***Bir rəcəzlə özü qoy bildirə şəxsiyyətini,***
***Mən desəm düz demərəm, boş yerə bazar açaram.***

***Mən Əliyəm, yer üzündə elə bir şahəm mən,***
***Xilqətin sirrinə vaqif olan agahəm mən,***
***Yoxsula, sailə, məzlumə ümidgahəm mən,***
***Yadda saxla adımı, bil ki, Yədullahəm mən,***
***Xaçpərəstdən əl atıb, izn ola, zünnar açaram.***

***Çoxu məzluma verib, qane olan azə, mənəm,***
***Nəfəsimlə çevirən qış gecəsin yazə, mənəm,***
***Həm şəriət, həm ədalətdəki əndazə, mənəm,***
***Şəhri-elmə, bu həqiqətdi ki, dərvazə mənəm,***
***Açmağa həm də bu dərvazəni, həmvar açaram.***

***Nə qədər elm var aləmdə, sərasər bilirəm,***
***Tövratı həzrəti Musayə bərabər bilirəm,***
***İncili körpəliyimdən belə yeksər bilirəm,***
***O kitablar ki, səmadən enib, əzbər bilirəm,***
***Lövhi-məhfuzidə, bir-bir nə xəbər var açaram.***

***Xeyli yüksəkdə durur mərtəbəmiz aləmdən,***
***Yetə bilməz ora bir kəs xələfi-Adəmdən,***
***Mən Məsihadən, anamsa ucadır Məryəmdən,***
***Məni dünyayə gətirsin deyə, naməhrəmdən,***
***Onu gizlətmək üçün Kəbəyə divar açaram***

***Mən səxavət sözünü eyləmişəm dildə şüar,***
***Hatəmi-Tai mənə qibtə edər leylü nahar,***
***Göstərən dəmdə səxa, bilmərəm əsla miqdar,***
***Həqq yolunda verərəm sailə süfrəmdə nə var,***
***Doğrayıb nəfsimi imanıma iftar açaram.***

***Olmuşam mən elə bir sevgilinin müştaqi,***
***Döndərib insana hökmilə qara torpaqi,***
***Nuridən xəlq eləyibdir məni nur Xəllaqi,***
***Gün çıxandan qabaq ol nur ki, tutur afaqi,***
***O mənəm sübh durub aləmə rüxsar açaram.***

***Saqiya, rəhm elə ver badə meyi-vəhdətdən,***
***Bəlkə badən bizi azad eləyə qəflətdən,***
***Qəmi-dünyanı atıb, qurtulalım zillətdən,***

***Mahirəm, təbimə gər sayə düşə qüdrətdən,***

***Bu dili həzrət Əli vəsfinə təkrar açaram.***

***

***Ey qamətinə sərv giriftar çəmən aşiq,***

***Ey hüsnünə gülşəndə güli-nəstərən aşiq,***

***Ey kakilinin ətrinə mülki-xütən aşiq,***

***Dünyayə nə qədri gələ candan keçən aşiq,***

***Əsla ola bilməz sənə aləmdə tən aşiq...***

***Nərgislər olub, nərgisi-xummarın əsiri,***

***Ahuyi-xütən türreyi-tərrarın əsiri,***

***Bülbül çəmən içrə güli-ruxsarın əsiri,***

***Tuti ləbi-şirin ilə, güftarın əsiri,***

***Ey lə’li-gühərbarına dürri-ədən aşiq...***

***Eşq içrə bəlavü-ğəmin avarəsi sənsən,***

***Hər kəsdə ki, dərd olsa onun çarəsi sənsən,***

***Zəhra ilə Heydər gözünün qarəsi sənsən,***

***Bir aşiqin aləmdə cigərparəsi sənsən,***

***Olmuş o böyük zatə Üveysi-Qərən aşiq...***

***Sən dəhridə biçarələrə lütfi-Xudasən,***

***Sən eşqidə aşiqlərə həm rahnümasən,***

***Səhrayi-məhəbbətdə Şəhi-Kərbübəlasən,***
***Sən “qalü-bəladə” tanınan əhli-vəfasən,***
***Dünya göz açandan səni görmüş kühən aşiq...***

***Bir şe’ri demək istəmiş aşiq Hüseynə,***
***Əhdində sədaqətli olan aşiq Hüseynə,***
***Aşiqlər içində hamıdan fayiq Hüseynə,***
***Şe’rim olacaqmı görəsən layiq Hüseynə?!...***
***Oldum bu böyük aşiqə billahi mən aşiq...***

***Bir kimsəni ki, canı qədər sevdi Peyəmbər,***
***Bir kimsəyə ki, oldu ata Heydəri səftər,***
***Bir aşiqə ki, yox iki dünyadə bərabər,***
***Mən hansı dil ilə bəzəyim hüsnünə dəftər?!***
***Bir şəxsə ki, Zeynəb ola heyran, Həsən aşiq...***

***Cananı ilə bağlaya kim əhd ilə peyman,***
***Peymana vəfa etməlidir, lütf edə Canan.***
***Bir şahsan aləmdə ki, ey Şahi-Şəhidan,***
***Layiqdi kəsilsin sənə yetmiş iki qurban,***

***Ey sidq ilə Cananına qurban gedən aşiq...***
***Məşhur eləməz aşiqi asudə ibadət,***
***Vəsli ruxi-Canan onu qoymaz qala rahət,***
***Səhrada tapar aşiq olan rahi səadət,***
***Aləmlərə göstərmək üçün həqqü-ədalət,***
***Olsun gərək əlbəttə cudayi vətən aşiq...***

***Haqq aşiqinin dövlət ilə ülfəti olmaz,***
***Aşiq uya dünyayə onun şöhrəti olmaz,***
***Aşiqlərin imanı olar, sərvəti olmaz,***
***Dünyayə və dünya malına rəğbəti olmaz,***
***Ölsə qəbul etməz bu səbəbdən kəfən aşiq...***

***Sən böylə mətinsənmi məgər eşqidə Mahir?!***
***Tab eyləyəsən gəlsə kədər eşqidə Mahir?!***
***Öz ömrünü sərf etmə hədər eşqidə Mahir...***
***Dəm vurma özünnən bu qədər eşqidə Mahir...***
***Eşqin yükünə tab eləməz hər yetən aşiq...***



***Baba Pünhan***

***Harda bir cami yapır tez ora dürtür "hoca"sın***
***Ki, İmamdan ayırıb döndərə imanımızı...***

***

***Göz yaşım leysan olub səhrada bir dəryadı bu,***

***Gəl gedək burdan Hüseynim qanlı bir səhradı bu...***

***Xatəmin övladına yas tutmağa Adəm gəlib,***

***Adəmin fəryadına peyğəmbəri - Xatəm gəlib,***

***Kərbəla torpağına göydən bütün aləm gəlib,***

***Car çək başsız Hüseynə baş çəkən Zəhradı bu,***

***Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu...***

***Ötdü min dörd yüz ilim, dur Şimrə bir meydan oxu,***

***Yetdi son Aşura, zülmün qətlinə fərman oxu,***

***Bitdi həqqin intizarı, döndü bu dövran oxu,***

***Surələr Sur oldu xətmi-qeybəti-kübradı bu,***

***Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu...***

***Badu-Kubə şəhrinə bir gün Əli Əkbər gələr,***

***Həzrəti Əbbas ilə Həzrət Əli Əsğər gələr,***

***Zülfüqarıynan Əmirəl-Möminin Heydər gələr,***

***Sahibi əsri Zamandan öncəki peydadı bu,***

*Gəl gedək burdan Hüseynim, qanlı bir səhradı bu...*

*Ol Yəzidin ləşkərindən bir başa min baş gedər,*

*Şah Hüseynim başdadır hər başda gizlin baş gedər,*

*Baş düşər başdan çıxar qaş başa bir gün baş gedər*

*Yazdığım misralar içrə qalibi-misradı bu,*

*Gəl gedək burdan Hüseynim qanlı bər səhradı bu...*

*Bir səhər mən at belində göydə gördüm Hüccəti,*

*Endi göylərdən yerə sildim min illik həsrəti,*

*İnşə-Allah gün gələr Kubəmdə görrük Həzrəti*

*Bir həqiqətdir yazıb Pünhan demə xülyadı bu,*

*Gəl gedək burdan Hüseynim qanlı bir səhradı bu...*

***

***Zaman gələr açılar sirr olan cinayətimiz,***

***Açılsa qır qazanı, olmaz heç kifayətimiz.***

***Yaxınlaşınca "o gün" qeyri adilər çoxalar,***

***Yetincə Sahib əz-Zaman çaşar cəmaətimiz.***

***O vəqtidən ki, Badu-Kubəmiz, dönərlə dolub,***

***O vəqtidən də möhürsüz olub ibadətimiz.***

***Gələndə Əzrayıl Xuda verən əmanət üçün,***

***Deyin hökümət alıb, ondadır əmanətimiz.***

***Çadır vilayəti bizdə çadır şəhərciyidir,***

***Şəhərdə amma ki, hər villa bir vilayətimiz.***

***Səxavət ilə danışsaq da aru-qeyrətdən,***

***Xəyanət ilə düşüb tarixə hekayətimiz.***

***Təmami-şöhrət üçün bircə həccimiz çatmır,***

***Tamam olar bu məqsəd ilə həcc ziyarətimiz.***

***Əli ayağı dəyən Zülfüqar diyarında,***
***Kələkdən olsa küləkdən uçar imarətimiz.***

***Söz ilə, Pünhan, olubsa bu cahan xəlq əgər,***
***Qənaətimdi ki, sözdən qopar qiyamətimiz.***



***Hacı Adil Əkbər***

***Qıl səcdə, Əli eşqi ilə, ey dili-qafil,***
***Me'rac eləmək Heydəri-Kərrar ilə xoşdur.***

***Adil, sözünün qiymətin arif bilər ancaq.***
***Söz məclisi, sözsüz ki, xiridar ilə xoşdur.***

*******

***Mən deyim rövzə sən ağla, ləbi ətşanə görə,***
***Ey gözüm, ver selə bu dəhri o canana görə.***

***Ey behiştin Ağası, aşiqi ğəmdidələrin,***
***Əvəz eylərmi üzün, Cənnəti-Rizvanə görə?***

***Sizi hər eybidən aləmdə Xuda, pak etdi.***
***Bu kəlam həqqidü ol ayeyi-Qur'anə görə.***

***Lənət olsun Ömərə (ibni Sə'd), İbni Ziyadə, Şimrə.***
***Satdılar axirəti və'deyi şeytanə görə.***

***Nə qədər zülmü-sitəm çəksə də Mövlamız Hüseyn,***
***Yenə də səbr elədi Zeynəbi nalanə görə.***

***Vermədi beyət əlin Şimri-ləinə Əbbas.***
***Verdi əldən əlini Hüccəti-Sübhanə görə.***

***Gör necə pak, müqəddəsdi, mübarəkdi Ağam.***
***Ağladı, göydə mələklər də bu qurbanə görə.***

***Hər kimin niyyəti varsa ola zəvvari Hüseyn.***

***Ona lütf eylə Xuda şahi-Şəhidanə görə.***

***Bir günəhkarəm, üzüm qarədi dərgahində***

***Adili əfv elə Ya Rəbb Şəhi-Mərdanə görə.***

***

***İsmi-Rəhman ilə, ey dil, ayəti-Bürhan oxu,***

***Xaliqi-aləm veribdir çün sənə fərman, oxu.***

***Həqq ilə nahəqqi dərk etmək dilərsən, ey könül,***

***Gəl həqiqət naməsindən ayəti-Fürqan oxu.***

***Arif ol axtar həqiqət Kə'bəsin, ey binəva,***

***Ta ki göstərsin sənə hikmət yolun i'man oxu.***

***Seyr edib rəhmət gülüstanın, əzizim, eşq apar,***

***Bülbülü-şeyda kimi şövq ilə ər-Rəhman oxu.***

***Çıx cəhalət həlqəsindən, mə'rifət əhlindən ol,***

***Elm ilə, iman ilə aqillərə meydan oxu.***

***Tut bəsirət qalxanın tədbir ilə hər cəngidə,***

***Qoyma dəysin qəlbinə mehr ilə bir şeytan oxu.***

***Adila, yetmək dilərsən mə'niyi-əsrarə sən,***

***Gəl hidayət məktəbindən dərs alıb, Quran oxu.***



***Soltan Əlizadə***

***Dünya Əlisiz qaldı bu ondandı yəqin ki,***
***Kafərlər at oynatdı müsəlman qabağında.***

***Güc ver bizə üsyan eliyək zülmə Hüseyn tək,***
***Şahim necə durmuşdusa üdvan qabağında.***

***

***Ey Adın dillərdə əzbər, ya Əliyyəl Mürtəza,***
***Bizlərə aləmdə rəhbər, ya Əliyyəl Mürtəza.***

***Şəninə haqdən gəlibdir «Hələtavü» «İnnəma»,***
***Sureyi –«Rəhman»ü «Kövsər» ya Əliyyəl Mürtəza.***

***«Ləhməkə ləhmi» dedi çünki Muhəmməd Mustafa,***
***Şahid oldu insü-cinlər, ya Əliyyəl Mürtəza.***

***Xızrü-İlyasü Süleyman qapına dərban olub,***
***Nökərindi həm də Qənbər, ya Əliyyəl Mürtəza.***

***Malikü, Əmmarü-Yasər can fəda etdi sənə,***
***Həqq sənə ad verdi Heydər, ya Əliyyəl Mürtəza.***

***Kainatın məhvəri sən, səndədir hər ixtiyar,***
***Ey zəminü-ərşə ləngər, ya Əliyyəl Mürtəza.***

***Həqqini inkar edənlər cənnəti görməz yəqin,***
***Kuyivi aşiqlər istər, ya Əliyyəl Mürtəza.***

***İbni Mülcəm na müsəlman etmiyib Həqdən həya,***

***Oldu kafər, çəkdi xəncər, ya Əliyyəl Mürtəza.***

***Əhli-Beytün halıva ol gün sənin qan ağladı,***

***Matəmə qərq oldu yeksər, ya Əliyyəl Mürtəza.***

***Zeynəbü, Gülsümə yetdi bu xəbər ey vay o dəm,***

***Va müsibət, qopdu məhşər, ya Əliyyəl Mürtəza.***

***Hacı Soltan aşiqindir, atəşindən ahının,***

***Yandı xamə, yandı dəftər, ya Əliyyəl Mürtəza.***

***

***Saxlar səni aləmdə səlamət Əli zikri,***

***Çoxların edib çünki hidayət Əli zikri.***

***Fəxrindi bu dünyadə Əli tək imamın var,***

***Quran oxu ya eylə qiraət Əli zikri.***

***Zikr etsən Əli adını hər sübhü məsadə,***

***Eylər səni asudə və rahət Əli zikri.***

***Hər kəs bu adı dildə deyib həm əməl etsə,***

***Bəxş eylər ona rahi-səadət ƏIi zikri.***

***Zikri bir ibadətdi onun vardı xəbərdə,***

***Bundandı olub möminə adət Əli zikri.***

***Rəhmət götürər zikr eləsən dari-fənadə,***

***Söhrət götürər ruzi-qiyamət Əli zikri.***

***Soltan, Əlidir cismidə canım, ümüdim var***

***Hər vəqt edəcək xəlqə şəfaət ƏIi zikri.***



# Tofiq Həsənli

**Mən coşan xalqımızın nifrətinin şairiyəm,**
**Adı "birlik" deyilən sərvətinin şairiyəm.**

**Bəlkə bu qüdrəti Xaliq mənə bəxş etmişdir,**
**Bəlkə də bir gözəlin həsrətinin şairiyəm...**

**Əhli-beyt eşqi hopub fitrətimin tərkibinə,**
**Yari-Peyğəmbərimin ümmətinin şairiyəm.**

**Dili bağlı, əli qandallıdı cismim Allah!**
**Çünki, ruhumdakı hürriyyətimin şairiyəm.**
**Mənim üçün deyil o qanlı saraylar Tofiq,**
**Xalqımın şairiyəm, millətimin şairiyəm.**

***

***Səni salama gəlmişəm, yetişdi xoş məqam, Hüseyn,***

***Əcəb məqama gəlmişəm salam Hüseyn, salam Hüseyn.***

***Ölüncə saxlaram Ağa, Məhərrəmin əzasını,***

***Mən hicrin ilə çəkmişəm günahımın cəzasını.***

***Gələndə almışam Ağam Əbəlfəzin rizasını,***

***Olub bu eşqidən dilim rəvaneyi-kəlam, Hüseyn.***

***Yıxılmışam ayağuva-görüncə Əkbərin yatır,***

***Durarmı göz yaşım-görə sinəndə Əsğərin yatır?!***

***Şəhidlər içrə Qasimi-o-kani-Heydərin yatır,***

***Qalıb bu bəzmidə töküm gözüm yaşın müdam, Hüseyn.***

***Bu mülki-Kərbəladədir gözəlliyin təzahüri,***

***Məqam nə qədri varsa-batinin açıbdı zahiri.***

***Ziyarət eylədim şəhid Həbib ibin Məzahiri,***

***Könül bu bəzmigahidən doyuncan aldı kam, Hüseyn.***

***Müəssər oldu Əkrəmə İlahidən Rəsuli-Din,***

***Kələndə Kərbəlayə sən həqiqət idi məqsədin;***

***Dəyişməyə Firui-Din, pozulmaya Üsuli-Din,***
***Müvəssəl oldu bizlərə bu məqsədi-məram, Hüseyn.***

***O Babəli-Həvayicə, Ağam, gətirmişəm pənah,***
***Çəkir məni Fərati-eşq, qələm qolun məqami gah…***
***Məqami-Əkbər isə gəl o xaki-payi-səcdəgah,***
***O xakə təzim ilə eylərəm mən ehtiram, Hüseyn.***

***Ağam, sənin məhəbbətin çəkib ürəkdə rəsmini,***
***Alıb qucağa Kərbəla o parə-parə cismini.***
***İçəndə su yadırğasam əgər mübarək ismini,***
***Dəyərsə su dodağıma ola mənə haram, Hüseyn.***

***Yuxumda almışam sənin mübarəki-salamını,***
***Şükür ki, eylədin əta mərizinə məqamını.***
***Çağır yenə bu Tofiqi-rəvaneyi-kəlamını,***
***Nəsibim eylə bir daha verim salam, İmam Hüseyn!***

***

***Nə oyundur, başıma bir dəli sevda gəldi,***

***Məni eşq etdi dəli, ömrümə məna gəldi.***

***Sanmayın əqlimi bir "nazlı nigar" azdırdı,***

***Budur əla ki, mənim bəxtimə Ə'la gəldi.***

***Deməyin, "quş dilini təkcə Sülayman bilir",***

***Eylədim Rəbbidən ilhamı təmənna, gəldi!***

***Dəyişib, qəlbəyatan oldu mənim ilhamım,***

***Gecəyari yuxuma onda ki, Ta-Ha gəldi.***

***Məcnun "eşq aləminə" adladı bir Leyladan,***

***Məni ram etmək üçün bir neçə Leyla gəldi.***

***Yuxuda bir salam ünvanıma göndərdi Hüseyn,***

***Mülkünə etməyə zəvvar, özü Mövla gəldi.***

***Mənə haqq ilə vətən eşqini öyrətdi bu eşq,***

***Gülə bülbül, vətənə Tofiqi-şeyda gəldi.***



***Seyyid Nurəddin Darafərin***

***Asimani-eşqidə kovkabi-eşq,***
***Səcdəgahi-eşqidə mehrabi-eşq.***
***Eşqüvün müştaqidir əshabi-eşq,***
***Aduvun hər hərfidir bir babi-eşq.***
***Eşq olan son imtahanı əssəlam,***
***Əssəlam, Zəhra nişanı əssəlam…***

***

***Hər kim ki, Hüseyn matəminə şirkəti vardır,***

***Bilsin ki, xanım Fatiməyə xidməti vardır.***

***Bu mahi-əzanın əvəzi Davər əlində,***

***Peyğəmbəri-Əkrəm kimi bir sərvər əlində,***

***Ol Şiri-Xuda Murtəzəvü Heydər əlində,***

***Xatuni-bəşər Fatimeyi-Əthər əlində,***

***Həm Qaimi-hüccət o şəhi-yavər əlində,***

***Göz yaşın olubdur mələki-Zivər əlində,***

***Məhşər günü bir damcısı olsa gər, əlində,***

***Onda görəcəksən ki, onun qiyməti vardır.***

***Nolar ki, bir ay qarə ləçək bağla, Hüseynə,***

***Gəl məscidə, vur sinə, əza saxla Hüseynə,***

***Sal yadına ol vaqiəni, ağla Hüseynə,***

***Et xidməti bir nəxli suvarmaqla Hüseynə,***

***Ya bir ətəşə, şişə su almaqla Hüseynə,***

***Ver əmri bu xidmətdə qocalmaqla Hüseynə.***

***Etsinlə nişan ta, səni barmaqla Hüseynə,***

***Ki, ərz eləsinlər bu kəsin zəhməti vardır.***

***Qailsən əgər axirətə; poli-siratə,***

***Gəl, şiə, bu dərvazəyə, bu babi-nicatə,***

***Gəl, eylə təvəssül, dönə qəlbin ərəfatə,***

***Bir "vay Hüseynin" dəyə min bir sələvatə,***

***Gör onda nə cür lərzə düşər abi-Fəratə,***

***Bir dəfə gəlir cümlə bəşər hali-həyatə,***

***Fürsətdi, gəl, ömründən əgər, ağla o zatə,***

***Vallahı, kor olmaz o göz, əmniyyəti vardır.***

***Bir qeyrətin olsun, bu Hüseyn, cani-Xudadır,***

***Cannan da əziz tut onu, canani-Xudadır,***

***Hər kim ona heyran ola, heyrani-Xudadır,***

***Kim asi ola asiyi-Qur'ani-Xudadır,***

***Mehmanı olan, bir başa mehmani-Xudadır,***

***Çün, Kərbü-bəla səhnəsi meydani-Xudadır,***

***Əlbəttə axan qani-Hüseyn, qani-Xudadır,***

***Ondan da bu topraqda Hüseyn türbəti vardır.***

***Gir məscidə bu növhə deyən dillərə bir bax,***

***Zəncir vuran, sinə vuran əllərə bir bax,***

***Teştə, ələmə, qarə geyən mənbərə bir bax,***

***Get Kərbü-bəladə saralan güllərə bir bax,***

***Əbbasi-ələm-pərvərə bax, Əkbərə bir bax,***

***Norəstə cavan Qasimə bax, Əsğərə bir bax,***

***Sər nizədə Qur'an oxuyan ol sərə bir bax,***

***Dözsün bu müsibətlərə kim taqəti vardır.***

***Bu ay necə aydır gecəsi, gündüzü məhzun,***

***Həm, ərşü fələk, cümlə tamam yer üzü məhzun,***

***Məclisdə əzadara baxırsan gözü məhzun,***

***Vaiz də çıxır minbərə, ərzi, sözü məhzun,***

***Sadiq olanı şiədi yüzdən yüzü məhzun,***

***Bişəkkidi Zəhra bu əzadə özü məhzun,***

***Zəhra xanımın hüznüdü etmiş bizi məhzun,***

***Bəs olmaya məhzun, de kimin cür'əti vardır.***

***Kəştiyi-nicatdır həmi misbahi-hüdadır,***

***Şir oğludu amma, özü də Şiri-Xudadır,***

***Kim adını zikr etsə bilər ruha qidadır,***

***Ta ruzi-Qiyamət adı dillərdə nidadır,***

*Məskundu ürəklərdə, odur, həyyü bəqadır,*
*Gündüz günəşin nuru, gecə ayda ziyadır,*
*Behtərdi gözəllərdən ağam, mah-liqadır,*
*Ol Yusifi-Tahadı gözəl surəti vardır.*

*Hər kim bu əzayə götürə bir qədəm ağlar,*
*Qəm cuşə gələr bəzmidə eylər ələm ağlar,*
*Hər eşqi olan dildə nəva, gözdə nəm ağlar,*
*Yeksər bu cahan mülki tutar dərdü qəm ağlar,*
*Həm əhli-ərəb yasə batar, həm əcəm ağlar*
*Tab eyləməyib yazmağa əldə qələm ağlar,*
*Qəm məclisinin sahibi Zəhra nənəm ağlar,*
*Seyyid baş əyə sahibə təsliyyəti vardır.*

***

***Kim sevdi Hüseyni, o zaman bəxtəvər oldu,***
***Zəhra nəzərində ucalıb mötəbər oldu.***

***Dərk eyləyib ol, məktəbi şahi-şühədanı,***
***Aşiqlər içində seçilib bahünər oldu.***

***Baş əymədi zillətlərə əshabi Hüseyn tək,***
***Hər kəlməsi küffarə qılıncdan kəsər oldu.***

***Övladi-Əli adını zikr eyləməyənlər,***
***Bilsinlər ibadətləri cümlə hədər oldu.***

***Vəqt oldu Hüseyn Kərbü-bəlayə səfər etsin***
***Can mülkün əziz tutdu çoxu dərbədər oldu.***

***Yüzlərlə adam bey'ət edib gəldi Minayə,***
***Səd heyf ola sadiq elə yetmiş nəfər oldu.***

***Yetmiş iki baş nizələr üstündə ucaldı,***
***Quran oxuyan nizədə tək bircə sər oldu.***

***Bir Kərbü-bəla adlı kitab yazdı Hüseynim***

***Ta ruzi qiyamət oxunan bir əsər oldu.***

***Seyyid, əcələ eylə yetiş şərbəti-eşqə,***

***Bir də görüsən, ömr yetib, can xətər oldu.***



***Axund Azər Sani***

***Sən xəbərdar olduğunçün hər gün, ahımdan mənim,***
***Var ümidim ki, keçərsən hər günahımdan mənim...***

***

*Xətmi peyğəmbərə Qur'anda gəlib böylə nida*
*Mən sudan xəlq elədim aləmi söylübdü Xuda*

*Ol səbəbdəndi ki su tiynətidir dünyanın*
*Ta əzəldən bu yana ziynətidir dünyanın*

*Rəngi yox hiyləsi yox yəni ki, mütləq şəffaf*
*Ona bir rəngi qatarsansa əgər oldu muzaf*

*Sudu Fir'onu edən qərq, qılan qət'i həyat*
*Su verib həzrəti Musayə çətin anda nicat*

*Son qoyur gahi görürsən elə bir müşgülə su*
*Gahi yandırmaq ilə döndərir qəlbi külə su*

*Elə varlıqdı ki, su kim onu idrak eliyər*
*Mənəviyyatını cismindən əzəl pak eliyər*

*Necə dünyadə su tək pak eliyən zat vardır*
*Əhli-Beyt də bəşərə paklıq üçün meyardır*

***Cismi su pak eliyir, Əhli-Beyt (i)sə cani***
***Yalnız onlardı edən cismi-canı-nurani***

***Suyun haqqında bunu söyləsəm ancaq bəs edir***
***Həzrəti Fatimənin dəhridə mehriyyəsidir***

***Dağda çaylarda dənizlərdə gəlibdir dilə su***
***Bu fəxarətdən elə coşmadadır fəxr ilə su***

***Su cəmadatdı, dili yoxdu desin ki, səninəm***
***Kimə dostam deyə, yaxud da deyə düşməninəm***

***Bir axar su qabağın kəssən o əlbət duracaq***
***Qəlbin olsa duyacaqsan ki, nə cür qışqıracaq***

***Haqqımı zay eləmə gəl məni çatdır yiyəmə***
***Nəhri-Əlqəm o zaman batmış idi böylə qəmə***

***Su kənarında susundan yananın halına bax***
***Su qabağın kəsib haqqı dananın halına bax***

***Nə olaydı kimə aiddisə həqqin bilə su***
***Az qalıb zülmün əlindən belə qalxsın zilə su***

***Bu sudan xəlq olunan dəhr özü viran qalsın***
***Az qlıb çərxi-fələk bu işə heyran qalsın***

***Fikr elə bir su ki məhriyyeyi-Zəhra olsun***
***Gül tək övladları əmma ki, ətəşdən solsun***

***Bir kiçik qız baxır həsrət ilə səqqayə tərəf***
***Utanır baxmayır Əbbas Rüqəyyayə tərəf***

***Çün başı nizədədir ox da vurublar gözünə***
***Utanır ondan ötür ki, əməl etmib sözünə***

***Yetirə bilmib ətəşdən quruyan bir gilə su***
***Halbuki bəs eliyərdi o gülə bir gilə su***

***Xeymələrdən gələn əfğanə Əbəlfəz dözməz***
***Sudan ötrü batan al-qanə Əbəlfəz dözməz***

***Razıdır qəsdinə şəmşir ilə hamı duralar***
***Kəsələr qollarını həm gözünə ox vuralar***

***Məşqi ağzında tutar amma gələr əslində***
***Ona yox məşqinə ox dəysə ölər əslində***

***Necə bir qeyrətə malikdi o mövla görəsən***
***Yetişən vaxtı suya neynədi səqqa görəsən?!***

***Doldurub ovcunu suyla gətiribdir ələ su***
***Baxdı bir xeyli suya vurmadı amma dilə su***

***Bu necə zülm idi ya Rəbb nə müsibətdir bu?!***
***Altı aylıq Əli Əsğərdən ötür yoxdur su?!***

***Axiri mənzilidir şahi-şəhidan qucağı***
***Çat-çat olmuş ətəşindən quruyub dil-dodağı***

***İsti səhra və susuz körpə ola haləti yox***
***Ağlamır ağlamağa canda belə taqəti yox***

***Körpə oxlandı və az ömrü yetişdi tamama***
***Diksinib açdı gözün sanki deyirdi İmama***

***Daha su istəmirəm qanə dönəydi belə su***
***Məni qaytar anama verdi mənə Hərmələ su***

***Zülm olunmuş o kəsə kim ki, Həqin talibidir***
***Su verilmib o kəsə kim ki, suyun sahibidir***

***Yari ənsarini haqq uğruna qurban verdi***
***Özü cananı yolunda elə bir can verdi***

***Hələ tarix gözü görmübdi belə qurbanı***
***Hələ çərxin özü görmübdi belə qurbanı***

***Canını verdi fəda şahi-şəhidan o zaman***
***Xabi qəflətdə yatan ümmətə əmr etdi oyan***

***Kərbəladan coşa dünyaya sala vəlvələ su***
***Kimsənin bəlkə yana qəlbi gözündən gələ su***

***Bu nahaq qanlar İlahi qalacaqmı yerdə?***
***Nə zaman haqqın üzündən çəkilər bəs pərdə?***

***Gözləri yolda qalanlar nə qədər gözləyəcək?***
***Daha qeyrətli olanlar nə təhər gözləyəcək?***

***Yenə bu ümmət o zalimliyə biganə qalır***
***Yox ədalətdən əsər həqq yenə əfsanə qalır***

***Yan keçib daş yenə məndən dəyəcək qardaşıma***
***Nə rəvadur sevinim mənsə səlamət başıma?!***

***Azəra ağlayaraq qəlbüvə daim çilə su***
***Ora düşmüş ləkəni bəlkə bu yolla silə su.***

***

***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Ağladıb o mənzərə Həzrəti Peyğəmbəri...***

***Kərbübəla məktəbi eşq keçib hər kəsə.***

***İstədi zalım o gün həqqi kökündən kəsə...***

***Hər şeyi Xaliq görür, xəlq özü də görməsə...***

***Kim yaşadıbdur bunu, ta ki, o gündən bəri?***

***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Kərbübəla tarixə məhşərəcən iz salıb,***

***Qəlbinə möminlərin eşqilə bir köz salıb,***

***Kim ki, bu mövzuda bir məclis edib söz salıb,***

***Cari olub ruyinə çəşmidən əşki-təri,***

***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Kərbübəla yəni bir eşqə alışmaq yeri,***

***Kərbübəla yəni ki, Haqqa qovuşmaq yəri,***

***Kərbübəla eşq üçün yəni yarışmaq yeri,***

***Sadiq olanlar üçün burdadı Həqq məzhəri,***

***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Zalim olan zülmünü, aşiq olan eşqini,***
***Burda bəyan eylədi, hər kəs edib məşqini,***
***Cari edibdir üzə məzlum olan əşqini,***
***Aciz edibdir şəhid qanı bu gün xəncəri,***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Şahi-şəhidanidən hər şəhid almış izin,***
***Hər şəhidin başının üstə gəlib şahi-din,***
***Bircə şəhid var ama, anlamıram ki, neçin?***
***Bükdü onu qundağa, xeymədə öz madəri,***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***İstidə qundaq nədir, altı ayında uşaq,***
***Qundağa sarmış rübab, ondan ötür bu sayaq,***
***Ox yetişəndə deme, çalmaya ta əl əyaq,***
***Bir o qədər yanmasın Kərbübəla sərvəri.***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Heç yerə sığmaz bu iş, tifl ilə qovğa nədir?***
***Körpə boğazın nişan eyləmək aya nədir?***

***Hikməti var mütləqa, burdaki məna nədir?***
***Bu işə nə sövq edib zalım olan ləşkəri?***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Əssə xəzanın yeli hansısa bir çağidə,***
***Gül də fidan vəxtidə qalmaz o an bağidə,***
***Həqqi boğan cəhd edir, ki, boğa qundağidə,***
***Qalsa əgər məhv edər taifeyi-kafəri,***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***İndi özün fikr elə, hikməti Əsğər nədir?***
***Körpələrin naləsi, fitneyi-kafər nədir?***
***Hərmələ ya başqası, oxdu və ya hər nədir?***
***Hərmələlər indi də oxlayır Əsğərləri.***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Mən nə Fələstin, Yəmən, Qəzzəni qəsd etmirəm.***
***Orda da var körpələr, mənsə ora yetmirəm.***
***Burda ölür körpələr, heç o yana getmirəm,***
***Öz vətən övladımın azdımı dərdi-səri?***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Burda tifillər ölür mənəvi təzyiq ilə,***
***Məscidə getmək yasaq əmrini tətbiq ilə,***
***Harda fuhuş olsa o, yerlərə təşviq ilə,***
***Körpələri öldürür Hərmələnin üç pəri.***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Bir vətən övladı ki, şəhvət ilə ram olar.***
***Ölsə daha yaxşıdır, qalsa o bədnam olar,***
***Dildə müsəlman olaq, böyləmi İslam olar?***
***Əhli-din öldürmədi yetmiş iki əskəri?***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Biz də şəhid vermişik, biz bilirik dərd nədir,***
***Düşmənə qan udduran şir nədir, mərd nədir,***
***Böylə igidlik üçün bilməliyik şərt nədir,***
***Kərbübəla məktəbi, Kərbübəla rəhbəri.***
***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Biz Əbi Ədillahın məktəbinə gəlmişik.***
***Qal dedisə qalmışıq, öl dedisə ölmüşük.***

***Zillətə baş əymiyib ölməyi haqq bilmişik.***

***Tiflə yasaq bilmərik, məscidi ya mənbəri.***

***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Körpə əgər məscidə getməsə din məhv olar,***

***Küfr aradan məhv olub itməsə din məhv olar.***

***Həqq söz əgər hər yerə yetməsə din məhv olar.***

***Susdura bilməsiniz burda Axund Azəri.***

***Aldı nişan Hərmələ hülqi-Əli Əsğəri...***

***Ağladıb o mənzərə Həzrəti Peyğəmbəri...***



## *Seyyid Əsri*

***Hər yeri Kərbübəla hər güni Aşura bil***
***Həqqi batildən ayırd eyləyəsən ol səbəbə***

***Mərifət kəsbi kəramətli bir əxlaq ilədür***
***Qanacaqsız nə qanar uymadan adi ədəbə***

***

***Ya Əli ta olmamışdı can cəhanın sakini***
***Eşqin ey cani-cəhan olmuşdu canın sakini***

***Xaki-pakindən öpüb xadimlik etməkçün sənə***
***Kaş olam şəhri-Nəcəfdə asitanın sakini***

***Gər qonaq idi Hüseynin Kərbəladə aqibət***
***Qıldılar qansızlar ol qanlı məkanın sakini***

***Al şəhadət camin ey can saqiyi-Kövsərdən iç***
***Keç cəhan əzmindən ol bəzmi-cinanın sakini***

***Əhli-Beytindəndü Seyyid layiqincə beyti yox***
***Leyk var ümmidi olsun xanimanın sakini***

***

***Əssəlam ey ğəriblər xani***

***Əssəlam ey həbiblər cani***

***Bizə yeddinci qibleyi-Həqsən***

***Səkkizinci İmami-Həqqani***

***Səkiz uçmağ yedi damu elinin***

***Hübb ü büğzündü həqq fürqani***

***Hökmünə baş əgər əgər derlər***

***İns ü can hakimi Süleymani***

***Gah zamin duransan ahuyə***

***Gah edən canlu nəqşi-aslani***

***Doyurubdur "üyuni-əxbarin"***

***Var nə qədri "səduq" ətşani***

***Öz Mədinəndən eyləyüb hicrət***

***Çəkmisən doğma şəhr hicrani***

***Xameyi-əmr səbt edübdür əzəl***
***Nameyi-ömrünə bu ünvani***

***Bu vətən şəhri-Şəhrbanudur***
***Budu Dar-üs-səlami-Səlmani***

***Döndərübsən təmam cənnatə***
***Öz vücudinlə mülki-İrani***

***Ədn edüb Məqdəmün Nişapuri***
***Xüld edüb Məşhədün Xorasani***

***Türbətün zairi qədəmlərinə***
***Üz sürər ərşin olsa imkani***

***Sala Rövzən gözətçisi gözdən***
***Etibar ilə izzi-Rizvani***

***Hərəmün xadimi qoya naqis***
***Feyzü fəzl üzrə hur ü ğilmani***

***Ey Əminin əmanət etdigi can***
***Gör ki Məmun xain ü cani***

***Etdi üzdə səni vəliəhdi***
***Vəli süst idi əhd ü peymani***

***Sənə qəsdi əyandi əvvəldən***
***Aqibət verdi zəhr pünhani***

***Həqq dedi "ircii ilə Rabbik"***
***Razisən mərzisən bu vəsl ani***

***Rehlət etdin o baqi dərgahə***
***Qaldı sənsiz bu aləmi-fani***

***An könül Dibili ki bağlanmış***
***Ta riza möhri ilə divani***

***Et tilavət "mədarisu ayat"***
***Çək "xələt min tilavət" əfğani***

***Mən də seyyid ğulaminəm Əsri***
***Xidmətim mədhin ey şərəf kani***

***Vəhyi-münzəldü huşimi aparub***
***Gətirən nitqə mən ğəzəlxani***

***Ötür ötdükcə bülbüli-təbim***
***Dibili Bu Nüvasi Həssani***

***Məni etsən dua dutar ərşi***
***Şe'rimin şur ü şöhrət ü şani***

***Mərifət məktəbində ismi-Riza***
***Çəkdi sərməşqə mən səbəqxani***

***Lövhi-zatimdə ta rəqəm qıldım***
***Dərsi-əbcəd oxurkən ilk ani***

***Min bir əsmadu gizli zatində***
***Bu hesab ilə bildim irfani***

***O Həqin yerdəki xəlifəsidür***

***Höccəti ayəti vü bürhani***

***Qissə bilməz Rizayi mövla kim***

***Kəsb qılmaz rizayi-Movlani***



## *Məşədi Baba*

***Mən istəmərəm tutsa səsim külli-cahanı,***
***Allah mənə bir zümzümə göndərsə bəsimdir.***

***Mən cahü-calal istəmirəm ey Baba, Həqdən.***
***Hər gün mənə bir parça çörək versə, bəsimdir.***

***

***Gəl yetiş Sahibzaman, and verirəm ol Allaha, gəl,***
***Ehtiyacım çox böyükdür sən kimi bir şaha, gəl.***

***Hər tərəf qəmdir, fəlakətdir, bəladır, cəhlidür,***
***Anlamaz şahın məqamın, kim gədadur, cəhlidür,***
***Gəl ki, bəzi üzlər indi bihəyadur, cəhlidür,***
***Gəl ki, aləm məkridür, kindir, riyadır, cəhlidür,***
***Döndərir dövran mənim hər hissimi ikraha, gəl.***

***Gəl yetiş Sahibzaman, and verirəm ol Allaha, gəl,***
***Ehtiyacım çox böyükdür sən kimi bir şaha, gəl.***

***Gül-çiçəkdən yox əsər, hər yanda xaru-xəs-alaq,***
***Bəd əməllərdən bulanmış, lilə dönmüş saf bulaq,***
***Anlamır insan onu ki, anlayır hətta, ulaq,***
***Var xeyirxahlar ona bədxahilər vermir qulaq,***
***Gəl özün bildirginən bədxahlığın bədxaha, gəl.***

***Gəl yetiş Sahibzaman, and verirəm ol Allaha, gəl,***
***Ehtiyacım çox böyükdür sən kimi bir şaha, gəl.***

***Gəlginən bimə'rifət insanları ifşa elə,***

***Bir yeni mənzil bizə sən həqqidən inşa elə,***

***Tanrıdan gəlmiş vəzifəndir, bunu icra elə,***

***Gəl ki, tez haqqı-ədalət taxtını bərpa elə,***

***Çək bizi sorğu-suala, Xaliqi-dərgaha, gəl.***

***Gəl yetiş Sahibzaman, and verirəm ol Allaha, gəl,***

***Ehtiyacım çox böyükdür sən kimi bir şaha, gəl.***

***Beş gün ömrün üç günü qalmış, dəyərsizdir tamam,***

***Bağçalar viranədir, bağlar bəhərsizdir tamam,***

***Tox yatanlar ac yatanlardan xəbərsizdir tamam,***

***Nəfsi qalibdir ona, uymuş cəlali-caha, gəl.***

***Gəl yetiş Sahibzaman, and verirəm ol Allaha, gəl,***

***Ehtiyacım çox böyükdür sən kimi bir şaha, gəl.***

***Gözlərəm mən yolların həsrət ilə şamu-səhər,***

***Sən gələrsənsə nicatınla biz olluq bəxtəvər,***

***Gəl ki, Adəm oğlunun əhvalına sal bir nəzər,***

***Bilmiyir adəmliyi, azmış yolun əhli-bəşər,***
***Çox böyükdür ehtiyacı millətin islaha, gəl.***

***Gəl yetiş Sahibzaman, and verirəm ol Allaha, gəl,***
***Ehtiyacım çox böyükdür sən kimi bir şaha, gəl.***

***Göydən əlbəttə baxarkən hər şeyə Qadir, yerə,***
***Var günahın, öl xəcalətdən, ey insan, gir yerə,***
***Sən gələndə, ey İmam, başın qoyar şair yerə,***
***Əfvi istər Tanrıdan, yığ cənnət əhlin bir yerə,***
***Söylə, ey şair Baba, sən bizlə seyrangaha gəl.***

***Beş gün ömrün üç günü qalmış, dəyərsizdir tamam,***
***Bağçalar viranədir, bağlar bəhərsizdir tamam,***
***Çox baxışlar qıyğacı, dillər şəkərsizdir tamam,***
***Tox yatanlar ac yatanlardan xəbərsizdir tamam,***
***Nəfsi qalibdir ona, uymuş cəlali-caha, gəl.***

***Gəl yetiş Sahibzaman, and verirəm ol Allaha, gəl,***
***Ehtiyacım çox böyükdür sən kimi bir şaha, gəl.***

***

***İstərsən əgər getməyəsən badə ey insan***

***Allah yoludur haqq yolu dünyada ey insan***

***Gör həqq sənin üçün neçə səhmanı yaratdı***

***Altı günün ərzində bu dünyanı yaratdı***

***Sonra babam Adəm, nənəm Həvvanı yaratdı***

***Dərin düşün Allahını sal yada ey insan***

***İstərsən əgər getməyəsən badə ey insan***

***Allah yoludur haqq yolu dünyada ey insan***

***Peyğəmbərimiz ali Muhəmməd kimi insan***

***Dəvət eliyibdir bizi İslama o hər an***

***Çün Həqdən ona nazil olub ayeyi  Quran***

***Sən də çalış Həqq yolda ol amadə ey insan***

***İstərsən əgər getməyəsən badə ey insan***

***Allah yoludur haqq yolu dünyada ey insan***

***Allah buyurur kim mənə şəkk eyləsə hərgah***

***Öz varlığımı eylərəm o bəndəyə agah***

***Baxsın dənizə sadəcə bilsin ki, var Allah***

***Kimdir yatıran dalğanı dəryadə ey insan***

***İstərsən əgər getməyəsən badə ey insan***

***Allah yoludur haqq yolu dünyada ey insan***

***Hər kəs ki, bu dünyada ədalətsiz olarsa***

***Verməzsə zəkat, xüms səxavətsiz olarsa***

***Bir bəndə ki, Allaha ibadətsiz olarsa***

***Barsız bir ağacdır quru səhrada ey insan***

***İstərsən əgər getməyəsən badə ey insan***

***Allah yoludur haqq yolu dünyada ey insan***

***Gəl rəhmə ki, Həzrət Əlinin rəhmini yad et***

***Məzlumları, bikəsləri, acizləri şad et***

***Dünyada fəqət yaxşılıq ilə çalış ad et***

***Bir yaxşılıq oldu çatan imdada ey insan***

***İstərsən əgər getməyəsən badə ey insan***

***Allah yoludur haqq yolu dünyada ey insan***

***Zikr eylə sal öz Allahını yadına hər dəm***

***Tərif de böyük Allahının adına hər dəm***

*Allahdı çatan çünki sənin dadına hər dəm*

*Sən də çalış hər dəm çatasan dadə ey insan*

*İstərsən əgər getməyəsən badə ey insan*

*Allah yoludur haqq yolu dünyada ey insan*

*Dünya malına olma həris gəldi gedərdi*

*Gör lüt yaranib lüt də gedənlər nə qədərdi*

*İnsan bunu bil, olsa xəsis ömrü hədərdi*

*Bir pay özünə saxla dolan sadə ey insan*

*İstərsən əgər getmiyəsən badə ey insan*

*Allah yoludur haqq yolu dünyada ey insan*

*Allah buyurub kim ki, gətirsə mənə iman*

*Neynim deməyə qoymaram o bəndəni bir an*

*Axırda ona vəd edirəm cənnəti-rizvan*

*Gəl düz yola ol taki, halalzadə ey insan*

*İstərsən əgər getməyəsən badə ey insan*

*Allah yoludur haqq yolu dünyada ey insan*

*Yazdım bu gözəl kəlmələri mən bizə qardaş*

*Nolaydı ibadətlə keçəydi ömürün kaş*

***Bəsdir daha at hər şeyi, gəl dinə, keçir yaş***
***Allah vercəy əcrini üqbadə ey insan***
***İstərsən əgər getməyəsən badə ey insan***
***Allah yoludur haqq yolu dünyada ey insan***



# Əbdül Fəqir

***Zərbətlənən zamanda biri "fuztu" söyləmiş***
***Kuri görən zamanda da etmiş həya biri***

***

*Sən, ey insan, heç bilirsən mə'niyi insan nədir?*
*Gər bilirsən, ol zaman, şərh et mənə nisyan nədir?*

*Aləmi zərdə ələstu Rəbbukumdan feyz alıb,*
*Gər bəlanı söylədinsə əhdinə peyman nədir?*

*Kamil insan olmaq üçün xəlq olunmuşsan əgər,*
*Bəs sənin hər bir işində etdiyin nöqsan nədir?*

*Kamil olmaz zahiri Quranı kim dərk eyləsə,*
*Kamil oldur dərk edə, çün batini Quran nədir...*

*Dərdi qəflətdən vücudun çox əziyyətlər çəkir,*
*Durma artıq seyr elə, gör dərdinə dərman nədir?*

*Olmadınsa, daxil ey can mərifət bostanına,*
*Bəs sənin şamu-səhər öyrəndiyin irfan nədir?*

*Gər vücudun qəbul etmişsə ənəl-həqq məsləyin,*
*Ol zaman dünyadan ötürü etdiyin tüğyan nədir?*

*Əbdülə rəhm etdi Xaliq, açtı kor eynin ona,*
*Gördü hər bir yerdə dostu, bilmədi düşman nədir?*

***

***Həqiqət aləmindən heç xəbərdar olmadın, getdin.
Bu canu-dildən ol Həqqə vəfadar olmadın, getdin.***

***Ələm, Ali-Əba, dar isə qəlbindən inamındır.
Çox əfsus sən bu dünyadan ələmdar olmadın, getdin.***

***Sən ey mahi-Məhərrəmdə əzadan dəm vuran mömin,
Nə zahirdə, nə batində əzadar olmadın, getdin.***

***Göz axtarmaq məqamında söz axtardın bu aləmdə,
Boğuldun söz hicabında xiridar olmadın, getdin.***

***Nəfəs aldıqda nəfsindən həvəs aldın bu dünyada,
Nə Peyğəmbər, nə Qurana həvəskar olmadın, getdin.***

***Özün talib, cəhan mətləb, çaşıb qaldın bu aləmdə,
Bir ustad mətlubunçun sən tələbkar olmadın, getdin.***

***Güman etdin ki, elmünlə İmamın rahını tutdun, Əliyə
bu gümanınla tərəfdar olmadın, getdin.***

***Nə tapdunsa bu dünyada özünçün eylədin məsrəf,
Fədadan dən vurub amma fədakar olmadın, getdin.***



***Elşən Xəzər***

***Niyə bu Mahi-Məhərrəm gözünə oxdu sənin,***
***Bilirəm itrətə eşqin nə üçün yoxdu sənin,***
***Səbəbi, mayeyi-zatında xəta çoxdu sənin,***
***Bu Məhərrəm haram aydır, sən özünçün halal et,***
***Səbəbi ayda deyil, öz yaxınından sual et!***

***

***Qeyrətliyə qeyrətsiz olanlar çəkər həsrət,***

***Yaxşı nədi qeyrət?! Görəsən hardadı qeyrət?!***

***Qeyrət əgər alsaydı bir insan kimi surət***

***Aya bu ki, qeyrətli ələmdardə diyərdiz,***

***İnsan necə gör insana oxşardı diyərdiz.***

***Qeyrət dilə gəldi bu sözə, söylədi şair***

***Tay tutma Əbəlfəzlə məni Allaha xatir***

***Mən kimdi Əbəlfəz deyəcəm sən elə təsbit***

***Bir dağdı Əbəlfəz onu vermün mənə nisbət***

***Dağdan qoparılmış balaca zərrədi qeyrət.***

***Tarix onu tərif eliyib öz kitabında***

***Alimləriniz qeyd eləyib yüz kitabında***

***İznim əgər olsaydı mənim söz kitabında***

***Allaha acıq getməsə bir kəlmə pozardım***

***Qeyrət sözünə xətt çəkib Abbası yazardım.***

***Bir kəs susuz olsa içəcək olsa da damla***

***Dəryanı məəttəl qoyub Aşurada səqqa***

***Doldurdu içə ovcuna su, içmədi amma***
***Qeyrət dedi ki, iç döyüşə taqətin olsun***
***Əbbas dedi Əsğərdən utan qeyrətin olsun.***

***Sən boş-boş axırsan Fərata söylədi Səqqa***
***Birdən məni Allah yaradaydı belə dərya***
***Bir yolla açıb xeyməyə sarı yeni məcra***
***Zəhra bağının güllərin əl'an sulayardım***
***Əks halda xəcalətdən ölərdim quruyardım.***

***Elşən de görüm dərk eledin kimdi Əbəlfəz?!***
***Qeyrət ona şagirddi müəllimdi Əbəlfəz***
***Allah dediyi hər sözə təslimdi Əbəlfəz***
***Allah sözünə hər kim olar qəlb ilə təslim***
***Qeyrət ona şagird olacaqdır o müəllim.***

***

***Aç gözün, ey zülm eləyən şiəyə,***

***Rəhbərimin əsgəri hər yerdə var.***

***Cəng eləmə, sonda zəfər bizdədi,***

***Şiələrin səngəri hər yerdə var.***

***Ey qoşulan ləşgəri-süfyanlara,***

***Zülm eləsəz, hardasa, insanlara,***

***Şiə çıxar şir kimi meydanlara,***

***Həqqi sevən Cəfəri hər yerdə var.***

***Bir təzə məzhəb yarana qoymarıq,***

***Qanına məzlum boyana qoymarıq,***

***Bir hərəmə əl uzana qoymarıq,***

***Sındırarıq, Heydəri hər yerdə var.***

***Ey içi şeytan dolu azğın bəşər,***

***Zay olacaq hiylələrin, hiyləgər,***

***Qeybi bilən var ağamız bir nəfər,***

***Xidmət edən nökəri hər yerdə var.***

*Gəldi hidayət edə Qur'an, kimi?*
*Eyləməyin vəsvəsə şeytan kimi,*
*Kəsməyin insanları qurban kimi,*
*Çünki, əməl dəftəri hər yerdə var.*

*Var nə qədər Kərbübəla matəmi,*
*Yandıracaq Həşrə qədər aləmi,*
*Yatmayacaq qanə batan pərçəmi,*
*Pərçəminə müştəri hər yerdə var.*

*Ey sitəmə qərq eləyən dövranı,*
*Aşiqi-Əbbası yaxından tanı,*
*Qalmayacaq yerdə Əbəlfəz qanı,*
*Haqqın ələmpərvəri hər yerdə var.*

*Hər kim ola aşiqi-Əbbas əgər,*
*Hər iki dünyada olar bəxtəvər,*
*Yaz ağanın şəninə, Elşən Xəzər,*
*Dinləyəcək azəri hər yerdə var.*



**Şöhrət Səqqa**

***İsminlə başlasa nə olar, hər kəlami-eşq***
***Bir halda eşqə sən ki, özünsən İmami-eşq***

***Axdıqca qətrə-qətrə qanın qumlar üstünə***
***Hər qətrə kəlmə-kəlmə yazır "Əssəlami eşq"***

***

***Var səbəb Kəbədə göz açdısa dünyaya Əli***

***Əli elmin qapısı, həm Əli eşqin təməli.***

***Bu şaha layiq olan kimdir o dünya gözəli?***

***Demə yoxdur o gözəl, var, deyəcəm mən, deməli,***

***Gözü şəfqət, sözü hikmət, izi ibrət, üzü rəhmət, özü cənnət.***

***Bizi heyrətdə qoyubdur bu gözəllik dənizi, O, Xudanın əzizi,***

***Nə əzizmiş ki, onun həzrəti Məryəm kənizi***

***Nə ki, Məryəm, iki aləm o gülə xar demədi,***

***O gözəllər gözəli Fatimədi...***

***Aşiqəm məşuqumun ismini aşkar deməməm.***

***Çünki bu adı heç mən özüm bilməyirəm.***

***Təkcə bir hərfini billəm bu adın ki, o da kəm.***

***Onu da yazdı ürək lövhəsinə tacı-qələm,***

***Gördü bir hərfidən adlar yaranıb min aləm.***

***Biri Mərziyyədi, Şəmsiyyədi, Elmiyyədi, Helmiyyədi, Eyniyyədi, Bədriyyədi, Qədriyyədi, Bəhriyyədi, Mehriyyədi, Qəlbiyyədi, Qeybiyyədi, Qurbiyyədi, Ülviyyədi, Zülfiyyədi, Sübhiyyədi,***

***Qüdsiyyədi, Hurayeyi-Ünsiyyədi, gər göydə o Mənsurədisə, yerdə də Məbrurədir, o, Tahirədir, Bakirədi, Şairədi, Siddiqədi, Faiqədi, Şaiqədi.***

***Üzü göyçək, sözü gerçək, hələ bir ismi mübarək,***
***Nə ki, bir cümləsi tək-tək,***
***O bətuldur, onun hər ismi qəbuldur.***

***Onu məhbub eləyəndən Həqi-Yekta Özünə***
***İstədi göz aça dünya onun əla üzünə.***
***Etdi kor, nuru düşüb hər dəfə dünya gözünə,***
***Nuru qoy bir tərəfə, bax hələ Taha sözünə;***
***O ətimdir və qanımdır, o canımdır, iki dünyada xanımdır.***
***O mənim gözbəbəyimdir, ürəyimdir,***
***Onu kim incidə hərgah, o kəsi incidər Allah,***
***O anamdır, adı Quranda tamamdır,***

***Adı Kövsər, özü sərvər, sözü gövhər, dişi dürrdür, dili lu'lu,***
***Gözü yox, bu, nə sözə əqlə sığışmaz,***
***Gözü eşqdir, çün əql eşqi olan yerdə danışmaz.***
***Hələ zülfün demirəm, nöqteyi-vəhdət ilə birdir və bu sirrdir,***

***Deməli, zülfü onun leyli-qədrdir***

***Ki, bu leylin özü sübhi-əzəlidir.***

***Yəni, bu, sübhi Əlidir...***

***

***Çəkib səbriynən eşqə təsvir aşiq,***

***Edib dərdiynən eşqi təfsir aşiq,***

***Ona Aşiq Özü aşiqdir aşiq,***

***Buna məşuq özü aşiqdir aşiq,***

***Olur məşuqə aşiq nadir aşiq,***

***Məni aşiq edir böylə bir aşiq,***

***Soruşsan ismini, baldan şirindir,***

**Hüseyndir bu, Hüseyndir bu, Hüseyndir.**

***Buna səhvdir desəm Yəhya məsəldir,***

***Bu eşqin lövhəsində şah qəzəldir,***

***O, Yəhyadan fəqət bir beyt düzəldi,***

**Bunun hər beyti Yəhyadan gözəldir.**

***Açarkən eşq kitabın gör nə gəldi?!***

**Bu nuri-asiman, nuri-zəmindir.**

**Hüseyndir bu, Hüseyndir bu, Hüseyn.**

***Hər ox yazmış vücudunda bir ayə,***

***Açılmış yaraləri zikri-Xudayə,***

***Olub ismi-Xudadən məst bəlayə,***

***Deyir hu-hu, uçur hular həvayə,***

***Nə bir qətrə su istir bu nə sayə,***

***Buna çöl gülsitan ataş sərindir,***

***Hüseyndir bu, Huseyndir bu, Hüseyn.***

***Enib ərşi-bərindən nur çuxurə,***

***Çuxur içrə qarışdı nuru-nurə,***

***Görüb nuru gəlib Cibril hüzurə,***

***Dedi: Ya Rəbb, sığışmır bu şüurə,***

***Məgər ki, bu çuxur ərşi-bərindir,***

***Dedi: Ey Cəbrail, Ruhi-əminsən,***

***Dedi: Ya Rəbb, rəbbil-aləminsən,***

***Dedi: Amma, bu hubbul-aləmindir.***

***Hüseyndir bu, Huseyndir bu, Hüseyn.***

***Bu qətrə-qətrə doğranmış sitarə,***

***Sitarə yox, Qurandır parə-parə,***

***Bu Qurana edər kim istixarə,***

***Sitarələr ona eylər işarə,***

***Bu naz-afər deyil, nuri-afərindir.***
***Hüseyndir bu, Hüseyndir bu, Hüseyn.***

***Əgər pərdə dalındaysa bu pərnaz,***
***Səlam versən çağırsan pərdə qalmaz.***
***Səlamı pərdə arxasından almaz,***
***Deyib aşiqlərimlə pərdəm olmaz,***
***Lətifdir, mehribandır, nazənindir,***
***Hüseyndir bu, Hüseyndir bu, Hüseyn.***



## *Abdullah Abbaslı*

***Vücudumun bəla çəkən könüldür ən qəliz yeri,***
***Bəla özün dəyişdirir, fəqət, dəyişmir öz yeri.***

***Qülubi-aşiqanı səcdə - səcdə pak et əvvəla,***
***Həvalə eyləməzlər Əhli-Beytə natəmiz yeri.***

***Sücud edəndə iz burax, gələndə ruzi-məhşərə,***
***Şikayət əhli olmasın alın yeriylə diz yeri.***

***

***Zəvvar misalı qəm məni köksümdə daşlayır,***

***Ağır görüntülər nəfəsimlə yavaşlayır,***

***Qəlbin yol ayrıcında bir ağlaşma başlayır***

***"Əyyami - Fatimə"***

***Ah çəksə bir xanım nəfəsi inqilabdır,***

***Susmaq da bihəyalara ağır cəvabdır,***

***İffət xüsusi Kəbədir, ancaq hicabdır***

***"Ehrami - Fatimə"***

***Nəfsin yaxar vücudu közərmiş odun kimi,***

***Qəlbin mütəhhər olsa mübarək adın kimi,***

***Ad sahibiylə məhşur olarsan qadın kimi***

***"Ey namı Fatimə"***

***Peyğəmbərin vəfatına sərf oldu öylə qəm,***

***Süddən kəsildi hamilələr, çökdü müntəzəm,***

***Hər naləsində hicr ilə sızlatdı dəmbədəm***

***"İslamı Fatimə"***

***Sevda təvəssül ilə sükutumda yoğrulur,***

***Dünyadan irtibatım itir, ruha nur dolur,***

***Hacət çatır o həddə ki, ikrami-Rəbb olur***

***"İkrami - Fatimə"***

***Söz batdı göz çuxurlarıma toplanan suda,***

***Nazil edib bu şe'ri birər töhfətək Xuda,***

***Hər beytim Əhli-beytə sücud eyləyir, bu da***

***"İlhami - Fatimə"***

***

***Bir qərib daxmasının ərşə çəkib mənzərəsin,***

***Bağlayıb tozlara dost olmuş otağ pəncərəsin,***

***Ruhu məskunlaşıb israrla hüzn baxçasına,***

***Doldurub ömrü məşəqqətli əcəl boxçasına,***

***Gecə dərdin danışırmış quyuya,***

***"Ya Əli" zikrin üfürsəydi suya...***

***"Heç"nə...***

***Hansı ev sahibi göz yaşı töküb bitki üçün?!***

***Hansı gözlər yola səssiz su atıb itki üçün?!***

***Sonra göz yaşı töküb tökdüyü göz yaşlarına,***

***Söykənirmiş otağın nəmli soyuq daşlarına,***

***Bilməz idi kürək ardında nə var***

***"Ya Əli" zikrin eşitsəydi divar...***

***"Heç"nə...***

***Qəlbi şamtək ərimək dərdi utandırmışdı,***

***Əriyən şam soyuq insanlığı yandırmışdı,***

***Ya zərif qəlbini təklikdə alışdırdı, ya şam,***

***Ya qəriblik onu Allahla danışdırdı, ya şam,***

***Əlqərəz, yanmağa bənd oldu yaşam,***

***"Ya Əli" zikrinə yansaydı o şam...***

***"Heç"nə...***

***Saat əqlin dolanarkən itirən zəvvardı,***

***Nasaz olduqda təvafın bitirən zəvvardı,***

***Kiçik əqrəb böyük əqrəblə bitirmir cihadın,***

***Sanki bir mərhələsin xütbə edir ictihadın,***

***O saat yatmasa da, yatsa da yat***

***"Ya Əli" zikrinə yatsaydı saat...***

***"Heç"nə...***

***Ac-susuz şükr idi müxlis bəşərin baş tacı,***

***Quru nitqindəki bir kəlmə imiş meracı***

***Ev kənarında ki, bir parça çörək tapdı boyat,***

***Açdı qəm süfrəsi hikmətlərə ac qalmış həyat,***

***Səslənir qəm: "Nə qəmin var de görək" ,***

***"Ya Əli" zikrinə kəssəydi çörək...***

***"Heç"nə...***

***Meh xəbərsiz qapının qırdı çürük taxtasını***

***Yola vermişdi sükut çovğunu, qəm şaxtasını,***

***Ayrılıq saptək uzanmışdı səmanın səsinə,***

***Onu biçarə keçirdincə xəyal iynəsinə,***

***Yerə qoysaydı əgər iynə-sapı***

***"Ya Əli" zikrinə açsaydı qapı...***

***"Heç"nə...***

***Gizli sevdayə zühur etdi o gün Müshəfdə,***

***Qiblə səmtində düzülmüşdü kitablar rəfdə,***

***Hər kitab cildi birər mənəvi məcradan axın***

***Bir yaşıl üzlü kitab xətm eləsə sübhə yaxın***

***Qeybidən bəlkə də gəlmişdi xitab***

***"Ya Əli" zikrinə seçsəydi kitab...***

***"Heç"nə...***

***Yetdi ən sonda kəmalata, deyil adi Əli,***

***Qara boynundan ağ iplərlə asıb "Nadi-Əli "***

***Hər duasında uçuq daxma ziyasıyla dolur,***

***Yellənən pəncərədən mənzilə nur nazil olur,***

***Eşq ovuclarda gəlirmiş əmələ,***
***"Ya Əli" zikrini alsaydı ələ...***
***"Heç"nə...***

***Eşq' zəngulədir, eşqin biri zil, digəri bəm,***
***Mən də zildən bəmə səs-səs yoxa çıxmış qəribəm,***
***"Heç"lik iç mərtəbəmizdir, iki-üç pillə "heç"əm***
***Əlidir gözlərim, eşqim, yolum, əxlaqi küçəm ,***
***Mən Əli şəninə naqis qəzələm,***
***"Ya Əli" zikrini bilsəydi qələm...***
***"Heç"nə...***



## Pünhan Əzimli

***Dünya təvafın etmədə axşam-səhər bəşər,***
***Gəldik bəşər-bəşər, həmi getdik bəşər-bəşər.***

***

***Aşiqlər olur ismi-şərifimlə müşərrəf***

***Mən eşq büsatində şərafətli Hüseynəm***

***İzzətli mələklər mənə təzimdə mükəlləf***

***Bilməz məni dünya nə fəxarətli Hüseynəm***

***Mən həqqimə əhdimdə sədaqətli Hüseynəm***

***Mən cəddimə eşqimdə ləyaqətli Hüseynəm***

***Mən Həzrət Əli oğlu ədalətli Hüseynəm***

***Mən Fatimə övladı əsalətli Hüseynəm***

***Mən Kərbü-bəla sərvəri qeyrətli Hüseynəm***

***Mən izzətə izzət verən izzətli Hüseynəm***

***Şahənələrin şahına şahanə mənəm mən***

***Ariflərin axtardığı fərzanə mənəm mən***

***

***Mahiyyətinin şərhinə aciz qalar idrak***

***Əlbəttə Hüseynin sözü heybətli nidadır***

***Ah etsə qaçar məhvəri-dünya uçar əflak***

***Əlbəttə Hüseynin səsi şiddətli sədadır***

***Söz sahibi əlbəttə rəisi-şühədadır***

***Pirahəni-izzət bizə Rəbbani qidadır***

***Kim zillətə qul tək boyun əymişsə gədadır***

***İzzətlilərin nəğməsi dünyaya vədadıır***

***Cismim kimi cananıma canım da fədadır***

***Sussam nə atam Həzrət Əli Şiri-Xudadır***

***Sussam nə anam həzrəti Zəhra nə mənəm mən***

***Mərdanələrin sevdiyi mərdanə mənəm mən***

*******

***Mən ləşkəri-hürriyyətə ən şanlı süvari***

***Mən hərb oxuyan zalimə xəncər çalan aşiq***

***Mən gülşəni-ülviyyətin ən doğma bahari***

***Dünyaya fərəh bəxş eləyib dərd alan aşiq***

***Mən gülləri qoynunda susuzdan solan aşiq***

***Mən bir qəmi min sinəyə atəş salan aşiq***

***Mən sineyi-suzaninə qanlar dolan aşiq***

***Mən həzrəti məşuqinə sadiq qalan aşiq***

*Mən dəşti-şəhadətdə namazın qılan aşiq*

*Mən cami-səadətdən içib məst olan aşiq*

*Hüşyarilərin gəzdiyi mastanə mənəm mən*

*Aqillərin axtardığı divanə mənəm mən*

***

*Qalib gələrək hicrə olub vəslə müyəssər*

*Bir vadeyi-sevda ara yetmiş iki qurban*

*Başdan-başa səhrada açılmış güli-əhmər*

*Ecazımız etmiş quru torpaği gülistan*

*Mən Əsğəri-şeşmahəsi qoynunda verən can*

*Mən Əkbəri-biçarəsinin bağrı olan qan*

*Mən Qasiminə ərzü səma valehü heyran*

*Mən Zeynəbi aşüftə, Rüqəyyası pərişan*

*Mən qolları şəqq olmuş Ələmdarinə giryan*

*Mən eşqi könüllərdə gəzən Şahi-Şəhidan*

*Sərvərlik edən Şah şəhidanə mənəm mən*

*Ləbtəşnə verən canını canana mənəm mən*

***

*Əlini vəsf edib Xuda bəşər sözü nə karədir*
*Əli bütün cahanı nura qərq edən sitarədir*

*Münəzzəh eybidən deyil qüsurludur bəşər sözü*
*Xuda Özü o mötəbərdən açdı mötəbər sözü*
*Araşdır elmi-həzrəti otur vərəqlə hər sözü*
*Yəqinə yetmək istəyən məriz qəlbə çarədir*

*Ürək gərək götürməsin nalayiq eşqi layiqə*
*Dəmi-vüsalə yetməyə hünər gərəkdir aşiqə*
*Əgər seçim çətinləşib həvalə eylə Caliqə*
*Həqiqi xeyrə çatmağın əsası istixarədir*

*Rükuda kim zəkat verib keçir Quranda tərifi*
*Məqama bir kiçik işarə çatdırar bir arifi*
*Bilinməyir həqiqi yaxşılıqların müəllifi*
*Sən etdiyin, mən etdiyim səxavət aşikarədir*

*Xurafat eşqidən deyil kiminsə ləğvitatidi*
*Ölüm gələndi qarşıdan yaşam xəyali-atidi*

***Əlini ehtiva edən böyüklük onda zatidi***
***O dursa da minarədir otursada minarədir***

***Hüseyn Əlinin oğludur vücudu nur mə'dəni***
***Əyalını kim eyliyib əsir düşündürür məni***
***Hüseynə ey ilahi kim vurub birinci zərbəni***
***O hansı başı daşlıdır o hansı bəxti-qarədir?!...***

***Onu danan bir adəmi xəlayiq eyləməz qəbul***
***Qəbul xəlayiq eyləyərsə Xaliq eyləməz qəbul***
***Əli qəbul edən qəmi bir aşiq eyləməz qəbul***
***Əlini mömin istəyər münafiq eyləməz qəbul***
***Mənə böyüklərin sözü misali-güşivarədir***

***Həqiqət orda gizlənib gəzin bəqi məzarlığın***
***O yer cahanın aşikar edir bietibarlığın***
***İlahi qüvvə yoxluğunda gizlədibdi varlığın***
***Subutuna işarə tapmamaq da bir işarədir...***



*Aydın Xırdalanlı*

***Yaxşı ki, şiə hədislərində Şeyx Kuleyni var,***
***Yaxşı ki, İran var, inqilab edən Xomeyni var,***
***Hər günün öz Yezidi, hər günün öz Hüseyni var,***
***Kərbəla yolunu gedir qafilə sakit-sakit...***

***

***Bəndəliyin şərti itaətdir,***

***Razı Xuda qalsa kifayətdir...***

***Millət acından nəyi var satsa,***

***Yardım elə xalqa əlin çatsa,***

***Zalımı durğuzmaginan yatsa,***

***Hər nə qədər yatsa ibadətdir.***

***Yorulmuşuq bir-birin əzməkdən,***

***Bezmişik hətta daha bezməkdən,***

***Çatlamışıq dərdlərə gözməkdən,***

***Sümüyə bıçaq batdı nəhayətdir.***

***Kim ulu xalqın soruşur yaşını,***

***Millət özü girləyir öz başını,***

***Bir yetimin vardı qotur maşını,***

***Taksi qoyub sürsə cinayətdir.***

***Dua qalxır ərşə məçidlərdən,***

***Hüseyni hifz eylə yezidlərdən,***

***Banklara borcdan kreditlərdən,***
***Kim danışır mövzu şikayətdir.***

***Peşman olursan götürürsən yer,***
***Nəyinə gərəy var ya da yox alver,***
***Zalım oğlu vergi deyir tap ver,***
***Bura aman Allah nə vilayətdir?!...***

***Əhalinin hünəri yox imiş ki,***
***İçində bəxtəvəri yox imiş ki,***
***Qız evinin xəbəri yox imiş ki,***
***Oğlan evindəysə ziyafətdir.***

***Şah İsmayıl övladıyıq bizlər,***
***Haqdı kim ki haqq yolunu izlər,***
***Yertişdirəcək ölkə Mübarizlər,***
***Məqamın ən böyüyü şəhadətdir.***

***Peyğəmbər deyibdi bu xəbəri,***
***Bilin mənəm elmin əsil şəhəri,***

***Ora qapıdan gərək girək içəri,***
***O da Əlidir, rahi-hidayətdir!***
***Zikri Əli rahi-hidayətdir...***

***Tam qutarmamışdan oyun qururuq,***
***Gücümüz çatmayır boyun bururuq,***
***Geyinmək istəyəni soyundururq,***
***Bu da sənə qurban təzə adətdir.***

***Zülm bizi bu günə qoyubdursa,***
***Fələyi sənin yerinə sayıbdırsa,***
***Eşşəyə minməy bir ayıbdırsa,***
***Düşməyin onda da qəbahətdir.***

***Əbəs yerə boğazmızı cırırıq,***
***Eşidən eşidəcək niyə qışqırırıq,***
***Hər şeyi biz Allaha tapşırırıq,***
***Bizi görən ən Ali ədalətdir.***

*******

***Tanrı vermiş bəşərə zövqü-səfa musiqini.***

***Mənəviyyata qida, qəlbə ziya musiqini.***

***Musiqi zövqü-səfa bəxş eləyər hər adama,***

***Səsdir hər bir sözü düzmüş ipə, salmış nizama,***

***Səsin ecazı gəlib Davud əleyhissəlama,***

***Bizə bir möcüzətək verdi Xuda musiqini.***

***Musiqi ah səsi, nalə səsi, vay səsidir.***

***Bu təbiətdə dəniz dalğasıdır, çay səsidir.***

***Ən şirin səs ananın çaldığı lay-lay səsidir.***

***Mənə etmişdi müqəddəs bu səda musiqini.***

***Sözü səsdir dilimizdə eləyən amadə,***

***Sözdür məna onu ki, səsdir edən ifadə,***

***Yağışa söz, küləyə səsdi misal dünyadə,***

***Sözə həmdəm bilib əhli-ürəfa musiqini...***

***Musiqi adlı böyük mülkidə sultandı muğam.***

***Azəri xalqına Haqdan gələn ehsandı muğam.***

*Verdiyi zövq ilə min dərdliyə dərmandı muğam.*
*Dərdinə xəstə könül bildi şəfa musiqini...*

*Şurumu qeyd eliyim, yoxsa deyim seygahi?!*
*Biri üsyandan əlamət, biri məzlum ahi.*
*Gərək olsun hamı bu incəliyin agahi,*
*Həmi şah anlaya, həm də füqəra musiqini...*

*Xoş avaz ilə tilavət olunarkən Qur'an,*
*Bu səda ilə verilmiş babamız Adəmə can,*
*Ol səbəbdəndi xoş avaz eşidərkən insan,*
*Bilir öz ruhuna ruhani qida musiqini.*

*Musiqiynən hərəkət etmədədir çərxi-fələk,*
*Duyar əlbəttə ki, bu musiqini bəzən ürək,*
*Haqqın əmriylə ki, məhşərdə çalar suru mələk,*
*Görəsən hansı avaznan əcəba musiqini?!...*

**~**

***SON***

p

